*Azərbaycan Respublikası*
*Maliyyə Nazirliyinin*
*Dövlət Sığorta Nəzarəti Xidmətinin*
*rəisi*

**_______________ *N.C.Xəlilov***

***«___» ____________ 2011–ci il***

*“İPƏK YOLU SIĞORTA”*
*Açıq Səhmdar Cəmiyyətinin*
*İdarə Heyətinin Sədri*

**____________ *N.C.İmanov***

***«___» ____________ 2011–ci il***

# YÜKLƏRİN SIĞORTASI QAYDALARI

**BAKI – 2011**

# YÜKLƏRİN SIĞORTASI QAYDALARI

"Yüklərin sığortası" qaydaları (bundan sonra mətndə "Qaydalar" adlandırılacaq) Azərbaycan Respublikası qanunlarının və digər normativ-hüquqi aktlarının tələblərinə müvafiq işlənib hazırlanmışdır və "Yüklərin sığortası" müqaviləsinin (bundan sonra mətndə "sığorta müqaviləsi" adlandırılacaq) ayrılmaz tərkib hissəsidir.

Hazırkı Qaydalar üzrə sığorta növü sığorta obyektinə görə əmlak sığortasına aid olan yüklərin (nəqliyyat) sığortası sinfinə daxildir.

Sığorta obyekti hazırki Qaydalara müvafiq olaraq sığorta hadisəsinin baş verməsi nəticəsində sığorta olunmuş yükün itirilməsi (məhv olması) və ona zərər vurulması riski ilə bağlı Sığortalının Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan əmlak mənafeləridir.

Hazırki Qaydalara müvafiq olaraq sığorta predmeti sığorta müqaviləsi üzrə sığotalanan yükdür.

Bu Qaydalar, Sığorta şəhadətnaməsi, Sığortalı (Sığorta olunan) tərəfindən doldurulmuş Ərizə forması və müvafiq Əlavələr bütövlükdə bir müqavilə hesab edilirlər.
Ərizə forması müqavilənin əsası sayılır və sığorta təminatı Ərizə formasında Sığortalı (Sığorta olunan) tərəfindən göstərilmiş məlumat və Ərizə formasında qeyd olunmuş Sığortalının (Sığorta olunanın) bəyannaməsi əsasında verilir.

## ÜMUMİ MÜDDƏALAR

## 1. SIĞORTANIN ƏHATƏ DAİRƏSİ

1.1. Bu sığorta qaydaları ilə, sığorta müqaviləsinin mövzusuna daxil olan yükün, müqavilədə göstərilən vaxt və ya daşıma müddəti ərzində müqavilədə göstərilən dəniz, avtomobil, hava nəqliyyat vasitələri və habelə dəmir yolu vasitəsilə ilə daşınması və yaxud daşınması zamanı olan hansısa bir anbarda müvəqqəti olaraq saxlandığı zaman məruz qaldığı sığorta hadisələri nəticəsində dəyən ziyan və zərərlərə, əlavə edilmiş xüsusi şərtlər daxilində təminat verilir.

1.2. Sığorta müqaviləsində istifadə edilən «Yük» termini, həyata keçiriləcək daşımanın xarakterinə uyğun olaraq qablaşdırılmış malları əhatə edir. Bununla birlikdə Sığortaçı qəbul etdiyi hallarda istifadə edilmiş əşyalar, qüsurlu və ya geri qaytarılan mallar, Sığortalınn razılığı ilə gəminin göyərtəsində daşınan yüklər, eləcə də örtüksüz yük maşınında və ya açıq vaqonda daşınan yüklər, şəxsi əşyalar və ya əl yükləri, canlı heyvan və poçt göndərişləri də, bu ümumi qaydalara əsasən "Yük" sayılır.

## 2. SIĞORTA TƏMİNATININ ƏHATƏ DAİRƏSİ

2.1. Sığorta təminatı baş vermiş hadisə nəticəsində yükə dəymiş ziyan və zərərləri və yaxud onlarla əlaqədar xərcləri əhatə edir. Ziyan və zərərin və yaxud xərclərin miqdarı və mahiyyəti, təminata daxil edilən hadisələr və istisnalar sığorta şəhadətnaməsinə əlavə edilən xüsusi qaydalara əsasən müəyyən edilir.

## 3. SIĞORTA TƏMİNATI

Sığorta şəhadətnaməsinin şərtləri daxilində,bu sığorta üzrə təminat London Sığortaçılar İnsititunun aşağdakı Şərtlərinin maddələrinə,tələblərinə,risklərinə,istisnalaranına və şərtlərinə müvafiq verilə bilər:
3.1 1/1/82 il tarixli ,CL252 saylı London Sığortaçılar İnstitutunun Yük sığortası Şərtləri (A)
3.2 1/1/82 il tarixli ,CL253 saylı London Sığortaçılar İnstitutunun Yük sığortası Şərtləri (B)

3.3 1/1/82 il tarixli ,CL254 saylı London Sığortaçılar İnstitutunun Yük sığortası Şərtləri (C)
3.4 1/1/82 il tarixli ,CL256 saylı London Sığortaçılar İnstitutunun Yük sığortası Tətillər haqqında maddə
3.5 1/1/82 il tarixli ,CL255 saylı London Sığortaçılar İnstitutunun Yük sığortası Müharibə haqqında maddə
3.6 1/1/82 il tarixli ,CL259 saylı London Sığortaçılar İnstitutunun Yük sığortası Şərtləri (Hava Nəqliyyatı),(poçt ilə göndərmələr istisna olmaqla)
3.7 13/4/92 tarixli CL354 saylı London Sığortaçılar İnstitutunun Yük sığortası Təsnifat (Klassifikasiya) haqqında maddə
3.8 1/1/86 tarixli CL263 saylı London Sığortaçılar İnstitutunun Yük sığortası Dondurulmuş qida haqqında A Şərtləri(dondurulmuş ət istisna olmaqla)
3.9 1/1/86 tarixli CL264 saylı London Sığortaçılar İnstitutunun Yük sığortası Dondurulmuş qida haqqında C Şərtləri (dondurulmuş ət istisna olmaqla)
3.10 10/11/03 tarixli CL 370 saylı London Sığortaçılar İnstitutunun Yük sığortası Radioaktiv Tullantılar, Kimyəvi, Bioloji, Bio-kimyəvi və Elektromaqnit Silahların İstisnası haqqında maddə

## 4. SIĞORTA TƏMİNATINA DAXİL OLMAYAN ZƏRƏRLƏR (İSTİSNALAR)

4.1. Aşağıdakı hadisələr nəticəsində dəyən zərər və ziyanlar sığorta təminatına daxil deyildir:

4.1.1. Sığortalının qərəzli hərəkətlərinin səbəb olduğu itki, ziyan və başqa xərclər

4.1.2. Müsadirə, həbs, təsir göstərmə, gecikmə və ya bunlarla əlaqədar hər cür səbəblər;

4.1.3. Gizli və ya qadağan olunmuş ticarət, qaçaqmalçılıq;

4.1.4. İdxal, ixrac və tranzit qayda və qanunlarının pozulması;

4.1.5. Sığorta müqaviləsi bağlanan zaman yalan məlumat vermə sığortalı, vəkil və ya nümayəndəsinin qəsdən və ya qüsurlu hərəkətləri;

4.1.6. Malların qablaşdırılmasının kifayət etməməsi və ya uyğun olmaması və ya malların hazırlanmasında qüsurların olması səbəbindən baş vermiş ziyan, itki və ya çəkilmiş xərclər ( bu 4.1.6-cı maddənin məqsədləri üçün «qablaşdırma» sözü onun yalnız sığortanın qüvvəyə minməsindən əvvəl və Sığortalı və ya onun işçiləri tərəfindən həyata keçirilməsi halında konteynerdə yerləşdirmə mənasını verəcək);

4.1.7. Hava və atmosfer şəraitinin təsiri, çürümə və aşınmalar, siçovul, gəmirici və digər həşəratların vurduğu zərərlər;

4.1.8. Sığortanın, daşımanı bilavasitə özü və ya işçiləri vasitəsi ilə həyata keçirdiyi təqdirdə, kapitanın və gəmi işçilərinin pis niyyətli hərəkətlərinin, diqqətsizliklərinin, ehtiyatsızlıqlarının səbəb olduğu ziyan və zərərlər;

4.1.9. Sığortalı məlumatı olduğu halda, barıt, fulmikaton, kibrit, xam neft, benzin, fosfor, kimyəvi maddələr, dinamit, nitroqliserin və bu kimi tez reaksiyaya girən və partlaya bilən maddələr və sönməmiş əhəng, dağıdıcı mayelər, zəhərləyici və yaxud pis qoxulu maddələr, sığortalanmış mallarla bir yerdə yüklənib və ya boşaldılırsa, bu cür malların bir yerdə olması və ya onlara yaxın qoyulması ilə əlaqədar meydana gələcək ziyan və zərərlər sığorta təminatına daxil olan hər hansı bir hadisənin baş verib-verməməsindən asılı olmayaraq sığortaçı tərəfindən ödənilmir;

4.1.10. Təbii sızma, çəkinin və ya həcmin təbii itirilməsi, sığorta obyektinin təbii köhnəlməsi;

4.1.11. Sığorta predmetinin daxili qüsurları və ya təbii xassələrinin səbəb olduğu ziyan, itki və ya və ya çəkilmiş xərclər;

4.1.12 Tərkibində hər hansı atom və ya nüvə bölgüsü və/və ya sintezi və ya hər hansı başqa anoloji reaksiya olan və ya nüvə enerjisi istifadə edilən silahın istifadəsinin səbəb olduğu ziyan, itki və ya xərclər.

Burada sadalanan bəzi istisnalara, qarşılıqlı razılıq əldə olunarsa, əlavə sığorta haqqının ödənilməsi şərti ilə təminat verilə bilər.

## 5. SIĞORTA HAQQININ ÖDƏNİLMƏSİ

5.1. Sığorta haqqı, Sığortaçının təqdim etdiyi hesabın şərtlərinə muvafiq olaraq ödənilir. Sığorta haqqının hissə-hissə ödənilməsi barəsində razılıq əldə edilmişdirsə, sığorta haqqı şəhadətnamədə göstərilən tarixlərdə ödənilməlidir.

## 6. SIĞORTA DƏYƏRİ

6.1. Sığorta dəyəri yükün təsdiq olunmuş dəyərindən, habelə daşınma və sığorta xərcləri və bunların ümumi məbləğinin 10%-dan çox olmamaq şərti ilə diqər xərclərdən ibarətdir.

## 7. YÜKÜN DƏYƏRİNDƏN ARTIQ VƏ ƏSKİK OLAN SIĞORTA

7.1 Sığorta məbləği sığorta dəyərindən çox ola bilməz. Belə olan halda artıq olan hissə etibarsız sayılır. Sığorta məbləği sığorta dəyərindən az olduğu hallarda sığorta ödənişi sığorta məbləği ilə sığorta dəyəri arasındakı nisbətə uyğun olaraq ödənilir.

## 8. SIĞORTANIN MÜDDƏTİ, TƏMİNATIN BAŞLANMASI VƏ SONA ÇATMASI

8.1. Sığorta, şəhadətnamədə göstərilən müddət və hərəkət marşrutu üçün etibarlıdır.
8.2. Sığorta şəhadətnaməsində göstərilən hərəkət marşrutu və/və ya nəqliyyat vasitəsi, hadisə baş verməmişdən əvvəl, Sığortalının razılığı olmadan dəyişdirildiyi təqdirdə sığorta təminatı, vəziyyətin Sığortaçıya bildirilməsi və lazım olarsa, əlavə sığorta haqqı alınması şərti ilə davam etdirilə bilər.
8.3. Sığortaçının məsuliyyəti sığorta şəhadətnaməsində göstərilən şərtlərdən irəli gələn müddətlərdə başlayır və sona çatır.
8.4. Sığorta muqaviləsi (sığorta təminatı) Sığorta Şəhadətnaməsində göstərilmiş sığortanın qüvvəyə minmə tarixində saat 24:00-da qüvvəyə minir və göstərilmiş sığorta təminatının qüvvədən düşmə tarixində saat 24:00-da qüvvədən düşmüş hesab edilir.

## 9. AZADOLMA

9.1. Müqavilədə başqa bir şərt nəzərdə tutulmadıqda, ödəniş azadolma tətbiq edilmədən ödənilir. Azadolma nəzərdə tutularsa, onun forması, məbləği və tətbiqi qaydaları xüsusi şərtlə müəyyən edilir.

## ZƏRƏR VƏ ÖDƏNİŞ

## 10. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

**10.1. Sığortalının vəzifələri:**
10.1.1. Sığorta haqqlarını Sığorta Müqaviləsi ilə şərtləşdirilmiş məbləğdə və qaydada ödəmək;
10.1.2. Ərizə formasında və sığorta müqaviləsinin bağlanması zamanı sığorta riskinin ölçülməsi üçün əhəmiyyətli olan bildiyi bütün məlumatları, bu sahədə quvvədə olan digər sığorta müqavilələri və sığorta müddəti ərzində baş vermiş sığorta riskinin dərəcəsinə təsir göstərə biləcək hər hansı bir dəyişiliklər barədə Sığortaçıya məlumat vermək. Sığortalı Sığortaçıdan riskin dərəcəsinə təsir göstərə biləcək məlumatları gizlədibsə və ya Sığortaçının riskin sığortalanması üzrə qərarına təsir edə biləcək faktlar üzrə yanlış məlumat veribsə, belə halda həmin müqavilə etibarsız hesab edilir və iddia üzrə heç bir ödəniş verilmir;
10.1.3. Əgər Sığortalını sığorta müqaviləsinə və ya qanunvericiliyə əsasən sığorta ödənişini almaq hüququndan məhrum edən səbəb aşkar olunarsa, sığorta müqaviləsinə müvafiq olaraq alınmış sığorta ödənişini (və ya onun müvafiq hissəsini) Sığortaçıya qaytarmaq;

10.1.4. Sığorta hadisəsinin baş verməməsi üçün bütün mümkün olan və məqsədəuyğun tədbirləri görmək və Sığortaçının sığorta riskinin azalmasına yönəldilmiş bütün tövsiyə və məsləhətlərini yerinə yetirmək;

10.1.5. Hazırkı sığorta müqaviləsi ilə nəzərdə tutulan digər öhdəliklərini lazımınca yerinə yetirmək.

**10.2. Sığortalının hüquqları:**

10.2.1 Sığorta Şəhadətnaməsini itirdiyi halda onun yeni nüsxəsini (dublikatını) almaq;

10.2.2. Sığorta hadisəsinin baş verməsinin qarşısını almaq üçün və hadisələrin nəticələrini azaltmaq üçün zəruri olan məlumatı və məsləhətləri Sığortaçıdan almaq.

**10.3 Sığortaçının vəzifələri:**

10.3.1. Sığortalıya Sığortaçı tərəfindən müəyyən edilmiş qaydada tərtib olunmuş sığorta müqaviləsinin nüsxəsini vermək və Sığortalını sığorta müqaviləsinin şərtləri ilə tanış etmək;

10.3.2. Sığorta müqaviləsində göstərilən yükün sığortasını həyata keçirmək və sığorta hadisəsi baş verdikdə müqavilə ilə müəyyən edilmiş müddət ərzində və sığorta məbləği çərçivəsində dəymiş zərərin əvəzini müqavilənin şərtlərinə müvafiq olaraq ödəmək;

10.3.3. Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulan hallar istisna olunmaqla, Sığortalı və onun maddi durumu haqqında məlumatı yaymamaq;

10.3.4. Sığorta müqaviləsi ilə nəzərdə tutulan digər öhdəliklərini lazımınca yerinə yetirmək.

**10.4. Sığortaçının hüquqları:**

10.4.1. Sığorta hadisəsinin baş verməsi faktını və ya sığorta ödənişinin miqdarını müəyyən etmək üçün zəruri olan məlumatları Sığortalı və səlahiyyətli orqanlardan tələb etmək, sığorta hadisəsinin baş verməsi şəraitini və səbəbəblərini müstəqil surətdə araşdırmaq, irəli sürülmüş iddiaların əsaslı olub-olmasını və hadisənin sığorta hadisəsi olub-olmamasını müəyyən etmək üçün ekspertiza keçirmək;

10.4.2. Sığortalı tərəfindən ona təqdim edilmiş məlumatların doğruluğunu yoxlamaq. Sığorta məbləğinə və riskin dərəcəsinin ölçülməsinə və dəyə biləcək zərərin miqdarına təsir göstərə biləcək məlumatının Sığortalı tərəfindən qərəzlə təhrif edilməsi və ya gizlədilməsi halında, sığorta müqaviləsinin ləğv edilməsini və ya onun etibarsız hesab edilməsini tələb etmək;

10.4.3. Qanunvericilikdə və sığorta müqaviləsində göstərilmiş şərtlərə əsasən sığorta ödənişinin həyata keçirilməsindən imtina etmək;

10.4.4. Sığortalanmış riskin dərəcəsinin artması halında Sığortalıdan sığorta müqaviləsi şərtlərinin dəyişdirilməsini və əlavə sığorta haqqının odənilməsini tələb etmək;

## 11. SIĞORTA HADİSƏSİ BAŞ VERƏN ZAMAN TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

11.1. Hər iki tərəfin qarşılıqlı surətdə hüquqlarının qorunması şərti ilə, bütün növ mühafizə tədbirlərinin görülməsi və ya bunların həyata keçirilməsinin aidiyyəti üzrə tələb edilməsi, sığortalanmış malların xilas edilməsinə nəzarət və ya xilasetmə işini bilavasitə təşkil etmək Sığortalı üçün məcburidir. Sığortaçının isə bu işlərdə iştirak etmək səlahiyyəti vardır. Sığortaçının bu işlərdə iştirakı, onun səlahiyyət və hüquqları öz üzərinə alması və ödəniş məsuliyyətini qəbul etməsi kimi başa düşülməməlidir.

11.2. Sığortaçı ödəniş hüquqlarını müdafiə və ümumiyyətlə hər cür araşdırmalar aparmağa təşəbbüs göstərə bilər, gəmi zərər çəkərsə və ya səfərə çıxmaq üçün yararsız vəziyyətə düşərsə, Sığortalı malların başqa bir nəqliyyat vasitəsilə sahibinə göndərilməsinə cəhd göstərə bilər. Sığortalı belə hallarda sığortaçı ilə tam həmrəy olmalı və lazımı sənəd və məlumatları Sığortaçıya təqdim etməlidir.

11.3. Sığortalı daşıyıcı və ya bilavasitə cavabdeh olan üçüncü şəxslər əleyhinə olan Sığortaçı tərəfindən qaldırılmış ödəniş iddialarının və hüquqlarının müdafiə edilməsi üçün lazımi tədbirlər görməyə lazım olarsa, işin araşdırılması üçün Sığortaçı ilə qeyd-şərtsiz əməkdaşlıq etməyə görə məsuliyyət daşıyır.

11.4. Sığortalı mühafizə tədbirlərinin görülməsi ilə əlaqədar, istər özü, istərsə də malları qəbul edənlərin, ekspeditorların onların işçilərinin və ya öz yerlərinə təyin etdikləri səlahiyyətli şəxslərin səhlənkarlığına görə, dəyən zərər həcmində cavabdehdir.

11.5. Cavabdeh şəxsdən alınaraq, Sığortalı tərəfindən habelə, malları qəbul edən, ekspeditor, onların nümayəndələri və yaxud öz yerlərinə təyin etdikləri səlahiyyətli şəxs tərəfindən istifadə olunan vəsait sığortaçının ödəyəcəyi ödəniş məbləğindən çıxılır.

11.6. Sığorta ödənişi veridikdən sonra Sığortalının təqsirkar üçüncü şəxslərə qarşı olan iddia hüququ sığortaçıya keçir. Sığortalının, sığortaçının tələbinə əsasən bu barədə sığorta ödənişi qəbzində və yaxud əlaqədar başqa bir sənəddə müvafiq qeyd etməlidir.

11.7. Sığortalıya məxsus hüququn bu prinsipə əsasən Sığortaçıya verilməsi sığorta ödənişi məbləği ilə məhdudlaşır.

## 12. ZİYAN VƏ ZƏRƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

12.1. Hadisə zamanı dəyən ziyan və zərərlər, sığorta şəhadətnaməsinin ümumi şərtləri qüvvədə qalmaqla, sığortaçının həmin ərazidəki qəza nümayəndəsinin iştirakı ilə və əgər sığortaçının həmin ərazidə qəza nümayəndəsi yoxdursa, yerli qanun və qaydalara əsasən müəyyən edilir. Bu əməliyyat malların boşaldılmasından sonra 5 gün ərzində və mallar sahibinə təhvil verilməmişdən əvvəl həyata keçirilməlidir.

Yuxarıdakı şərtlərin yerinə yetirilməməsi məcburi səbəblərdən irəli gəlmiş olduğu Sığortalı tərəfindən sübut olunmasa, Sığortaçı ödəniş tələbini rədd etmək hüququna malikdir;

12.2. Ziyan və zərərlərin müəyyən edilməsi ilə əlaqədar çəkilən xərclər və ekspertlərə ödənilən haqqlar mallar sahibi tərəfindən ödənilir.

12.3. Müəyyən edilən ziyan və zərərlər bütövlükdə və ya qismən sığortalanmış riskdən meydana gəlmiş olarsa, Sığortaçı tərəfindən ödənilir.

12.4. Sığortaçı, xüsusi qəza ilə əlaqədar ödəniş tələb edilən zaman malların zərər çəkmiş hissənin qiymətinin müəyyən edilməsi üçün həmin malların açıq hərrac yolu ilə satışını tələb edə bilər. Sığortaçının bu hərəkəti, onun sahibkarlıq hüququnu qəbul etməsi kimi başa düşülməməlidir.

## 13. SIĞORTA ÖDƏNİŞİNİN HESABLANMASI

13.1. Yükə dəymiş zərərin məbləği, hadisə baş verən zaman zədələnmiş yükün dəyəri ilə hadisə baş verməmişdən əvvəlki son məntəqədə yükün dəyəri arasındakı faiz nisbətinin sığorta dəyərinə vurulması yolu ilə müəyyən edilir. Zədələnmiş yükün dəyəri, qiymətləndirmə və ya Sığortaçının razılığı ilə hərrac yolu ilə müəyyən edilir.

## 14. SIĞORTA ÖDƏNİŞİNİN ÖDƏNİLMƏSİ

14.1. Sığorta ödənişini tələb edən Sığortalı Sığortaçıya aşağıda qeyd edilən sənədləri təqdim etməlidir:

- qeyd edilən yük ilə bağlı öz sığorta marağını təsdiq etmək üçün konosamenti, nəqliyat fakturaları və digər daşınma sənədlərini, alqı-satqı və digər ticarət müqavilələri, hesab-fakturaları, qaimələri;

-Sığorta hadisənin baş vermə faktını təsdiq etmək üçün dəniz protestini, gəmi jurnalından çıxarışı, kommersiya aktını, cinayət işinin başlanılması haqqında arayışı və sığorta hadisənin baş vermə səbəbini göstərən digər sənədləri;

- Dəymiş ziyanın məbləğini təsdiq etmək üçün  qəza sertifikatını, qəza komissarı tərəfindən tərtib edilmiş yoxlama aktını, ekspertiza keçirildikdə ekspetiza aktını.

14.2. Sığortaçının ümumi qəza cavabdehliyi payı və ümumi qəza prinsipləri çərçivəsində ödəməli olduğu ödəniş məbləği, daşıma müqaviləsində göstərilən ərazidə sığorta müqaviləsinin şərtlərinə uyğun olaraq müəyyən edilir. Əgər, bu şərtin həllolunma prinsipi sığorta

müqaviləsində qeyd olunmamışdarsa, ödəniş məbləği sığortalanmış səfərin başa çatdığı ərazidə mövcud olan qanun və qaydalara əsasən tənzimlənəcək dispaşa vasitəsi ilə müəyyən edilir.

14.3. Sığortalının ümumi qəza cavabdehliyi payı ödədiyi (ödəməyə məsul edildiyi) zaman, əgər cavabdehliyə daxil olan mallar, ümumi qəzada iştirak payının hamısı ilə sığorta olunmuşdursa, ödənəcək ödəniş məbləği cavabdehlik payının hamısından ibarət olur. Lakin, mallar bütövlükdə deyil, qismən sığorta olunmuşdursa, sığortaçı tərəfindən ödənəcək ödəniş məbləği həmin nisbətə uyğun olaraq azaldılır. Əgər iştirak qiymətindən müəyyən çıxılma edilməklə sığortaçı tərəfindən ödənilməli olan bir xüsusi qəza baş verərsə, sığortaçının cavabdehlik payının müəyyən edilməsi üçün bu miqdar sığorta dəyərindən çıxılır.

14.4. Ümumi qəza prinsipləri çərçivəsində ödənilməli olan bilavasitə cavabdehlik payları müəyyən olunması üçün də bu şərt tətbiq edilir.

14.5. Sığorta təminatı Sığortaçı tərəfindən Sığortalıya sığorta ödənişini həyata keçirilməsi barədə yazılı razılığının göndərilməsi və Sığortalıdan ödənişin həyata keçirilməsi üçün zəruri olan bütün məlumat və sənədlərin qəbul olunması anından 15 gün ərzində həyata keçirilir.

## 15. SIĞORTA MÜQAVİLƏSİNƏ XİTAM VERİLDİKDƏ SIĞORTA HAQQININ HESABLANMASI

15.1. Müqavilənin Sığortalının tələbi ilə vaxtından əvvəl xitam olunması halında, Sığortaçı çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış hissəsi üçün sığorta haqqını ona qaytarır; əgər bu tələb Sığortaçının sığorta qaydalarını pozması ilə bağlıdırsa o, sığorta haqlarını Sığortalıya bütünlüklə qaytarır.

15.2. Müqavilənin Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam olunması halında, Sığortaçı Sığortalının sığorta haqlarını bütünlükdə qaytarır; əgər bu tələb Sığortalının sığorta qaydalarını yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış hissəsi üçün sığorta haqqını qaytarır.

15.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı sığortalıya qaytarılmır.

15.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydalarin 15.1-ci və 15.2-ci maddələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

## DİGƏR MÜDDƏALAR

## 16. HÜQUQUN VERİLMƏSİ

16.1. Sığorta ödənişi verildikdən sonra Sığortalının üçüncü şəxslərə qarşı olan iddia hüququ verilmiş sığorta ödənişi məbləğində Sığortaçıya keçir;

16.2. Sığortalı, Sığortaçının tələbinə əsasən bu barədə sığorta ödənişi qəbzində və yaxud bununla əlaqədar başqa bir sənəddə müvafiq qeyd etməlidir.

16.3. Bu şərtlər əsasında Sığortalının hüquqlarına sahib olmaq, ödənilmiş olan sığorta məbləği ilə məhdudlaşır.

## 17 XOŞ MƏRAMLILIQ ÖHDƏLİYİ

17.1. Tərəflər sığorta müqaviləsi imzalandığı və hüquqi qüvvədə olduğu müddət ərzində xoş məramlı olmalıdırlar. Sığortalı və yaxud sığorta müqaviləsini imzalamaq üçün onun tərəfindən təyin edilən şəxslər, müqavilə şərtlərinə təsir edə biləcək və onlara məlum olan

bütün məlumatları, sığorta müqaviləsi imzalanmamışdan əvvəl sığortaçıya bildirməyə görə məsuliyyət daşıyırlar. Bu şərtə əməl edilməməsi xoş məramlılıq prinsipinin pozulması kimi qəbul olunur. Sığortalı və yaxud sığorta müqaviləsini imzalamaq üçün onun tərəfindən təyin edilən şəxslər, özlərinin normal fəaliyyətləri əsnasında bilməli olduqları bütün məlumatları bilmiş hesab edilirlər. Müqavilənin imzalanıb-imzalanmaması və ya şərtlərin dəqiqləşdirilməsi üçün qəbul ediləcək qərara təsir edən bütün amillər, riskin qiymətləndirilməsi baxımından əhəmiyyət daşıdıqlarına görə müqavilənin əsasını təşkil edən amillərdən hesab edilir.

## 18. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

18.1. Sığorta müqaviləsi Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tərtib edilib və tərəflərlə lazımi qaydada yerinə yetirilməlidir.
18.2. Sığorta müqaviləsi üzrə tərəflərdən biri müqavilədən irəli gələn öhdəliklərini yerinə yetirmədikdə və yaxud lazımınca yerinə yetirmədikdə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq digər tərəfə vurduğu ziyanın əvəzini ödəməlidir.
18.3. Sığorta müqaviləsinə əsasən tərəflərdən heç biri o biri tərəfin yazılı razılığı olmadığı halda öhdəliklərini üçüncü tərəfə vermək hüququna malik deyil.

## 18. ƏRİZƏ FORMASI VƏ SIĞORTA MÜQAVİLƏSİNƏ QƏBUL EDİLMİŞ ƏLAVƏLƏR

18.1. Sığortalı tərəfindən doldurulmuş Sığorta Ərizəsi bu sığorta müqaviləsinin ayrılmaz hissəsi sayılır. Sığorta müqaviləsinin bağlanmasından sonra sığortalı tərəfindən sığorta hadisəsinin baş verməsi ehtimalı üzrə vacib məlumatı və ya onun baş verməsindən dəyə biləcək zərərlərin həcmi (sığorta riski) barəsində sığortaçıya yanlış məlumatın verilməsi aşkarlanarsa, və sığorta müddəti ərzində haqqında yanlış məlumatlar verilən şəraitlər ilə əlaqədar olan sığorta hadisəsi baş verərsə, bu faktlar sığorta ödənişinin verilməməsinə müqavilənin etibarsız hesab edilməsinə gətirə bilər.
18.2. Bu Qaydalar əsasında bağlanılmış sığorta müqaviləsinə Əlavələr tərəflərin razılığı ilə yazılı surətdə qəbul edilir, müqavilənin ayrılmaz tərkib hissəsini təşkil edir və bu Qaydalarda mövcud olan şərtləri dəyişdirə və ya müəyyənləşdirilməyən şərtləri qəbul edə bilər.

## 19. MƏLUMAT VƏ XƏBƏRDARLIQLARIN ÇATDIRILMASI

19.1. Müqavilə tərəfləri bir birinə yolladığı bildiriş və xəbərdarlıqlara dair aşağıdakı tələblərə riayət etməlidir:
a) Müqaviləyə müvafiq olaraq göndərilən hər hansı məlumat, bildiriş, xəbərdarlıq və ya razılıq yazılı şəkildə tərtib olunmalı və şəxsən, qabaqcadan ödənilmiş poçt və ya kuryer (çatdırma barədə bildiriş ilə), faks və ya teleks vasitəsi ilə müqavilədə göstərilmiş ünvanlara göndərilməlidir.
b) Tərəflərin ünvanları və/və ya rekvizitləri dəyişdiyi halda onlar bir birinə bu barədə əvvəlcədən məlumat göndərməlidirlər. Əgər sığorta müqaviləsi üzrə tərəf digər tərəfin ünvan və ya rekvizitlərinin dəyişməsi barədə məlumatlandırılmayıbsa, keçmiş ünvana göndərilən bütün bildiriş və xəbərdarlıqlar keçmiş ünvana çatdırıldığı andan qəbul olunmuş hesab olunurlar.

## 20. MÜBAHİSƏLƏRİN HƏLL EDİLMƏSİ

20.1. Sığorta müqaviləsi ilə bağlı bütün məsələlər, o cümlədən tərəflər arasında yaranan fikir ayrılığı və mübahisələr bir qayda olaraq danışıqlar yolu ilə həll edilir. Əgər danışıqlar yolu ilə nəticə əldə edilməzsə, mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada, o cümlədən məhkəmə qaydasında həll olunmalıdır.

## ƏLAVƏLƏR

Əlavə 1. London Sığortaçılar İnstitutunun Yük sığortası Şərtləri (A) (CL252).
Əlavə 2. London Sığortaçılar İnstitutunun Yük sığortası Şərtləri (B) (CL253).
Əlavə 3. London Sığortaçılar İnstitutunun Yük sığortası Şərtləri (C) (CL254).
Əlavə 4. London Sığortaçılar İnstitutunun Yük sığortası "Tətillər haqqında maddə" ( CL256).
Əlavə 5. London Sığortaçılar İnstitutunun Yük sığortası "Müharibə haqqında maddə" ( CL255).
Əlavə 6. London Sığortaçılar İnstitutunun Yük sığortası "Radioaktiv Tullantılar, Kimyəvi, Bioloji, Bio-kimyəvi və Elektromaqnit Silahların İstisnası haqqında maddə" (CL 370)

## ƏLAVƏ 1. LONDON SIĞORTAÇILAR İNSTİTUTUNUN ŞƏRTLƏRİ (A) (CL252)

***Sığorta olunan rislkər***

**1.** Bu sığorta, aşağıdakı 4,5,6 və 7–ci maddələrdə göstərilənlər istisna olmaqla, sığorta predmetinin məhv olması və ya zədələnməsi üzrə bütün risklərə münasibətdə sığorta təminatı verir.

**2.** Bu sığorta, daşıma müqaviləsi və/və ya müvafiq qanun və təcrübə əsasında müəyyən edilən və hesablanan, 4,5,6, və 7-ci bəndlərdə və ya bu sığortanın hər hansı başqa yerində əks olunmuş istisnalarda göstərilmiş səbəblərdən fərqli səbəblər üzündən baş verən itkinin qarşısının alınması məqsədi ilə çəkilən ümumi qəza və ya xilas etmə xərclərini əhatə edir.

**3.** Bu sığorta daşıma müqaviləsinin «Toquşmada Hər İkisi Təqsirlidir» maddəsi üzrə, sığortalının, bu sığorta ilə əhatə olunan zərərlərlə əlaqədar yaranan məsuliyyətinin müvafiq hissəsi üçün sığorta təminatı verir. Göstərilmiş maddə üzrə gəmi sahibləri tərəfindən hər hansı tələbin irəli sürülməsi halında, sığortalı, bu haqda sığortaçıları məlumatlandırmağı öhdəsinə götürür. Sığortaçılar öz hesablarına Sığortalını bu cür tələblərə qarşı müdafiə etmək hüququna malikdirlər.

### *İstİsnalar*

**4.** Bu sığorta heç bir halda aşağıdakıları əhatə etməyəcək:

4.1 Sığortalının qərəzli hərəkətlərinin səbəb olduğu itki, ziyan və başqa xərclər

4.2 Təbii sızma, çəkinin və ya həcmin təbii itirilməsi, sığorta predmetinin təbii köhnəlməsi.

4.3 Sığorta predmetinin qablaşdırılmasının kifayət etməməsi və ya uyğun olmaması və ya sığorta predmetinin hazırlanmasında qüsurların olması səbəbindən baş vermiş ziyan, itki və ya çəkilmiş xərclər ( bu 4.3-cü maddənin məqsədləri üçün «qablaşdırma» sözü onun yalnız sığortanın qüvvəyə minməsindən əvvəl və Sığortalı və ya onun işçiləri tərəfindən həyata keçirilməsi halında konteynerdə yerləşdirmə mənasını verəcək).

4.4 Sığorta predmetinin daxili qüsurları və ya təbii xassələrinin səbəb olduğu ziyan, itki və ya və ya çəkilmiş xərclər.

4.5 Gecikdirmənin səbəb olduğu ziyan, itki və ya xərclər, hətda belə gecikdirmə sığortalanmış riskin nəticəsində baş vermiş olsa belə (Yuxarıda təsbit edilmiş 2-ci maddənin əsasında ödənilməli olan xərclər istisna olmaqla).

4.6 Gəmi sahiblərinin, fraxtçılarının və ya istismarçılarının ödəmə qabiliyyətini itirməsi və ya öz maliyyə öhdəliklərini yerinə yetirə bilməməsinin səbəb olduğu ziyan, itki və ya başqa xərclər.

4.7 Tərkibində hər hansı atom və ya nüvə bölgüsü və/və ya sintezi və ya hər hansı başqa anoloci reaksiya olan və ya nüvə enercisi istifadə edilən silahın istifadəsinin səbəb olduğu ziyan, itki və ya xərclər.

**5.** 5.1 Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan, itki və ya xərcləri əhatə etməyəcək
gəminin və ya bərənin istifadəyə yararlı vəziyyətdə olmaması,
konteynerin, gəminin, bərənin və ya hər hansı digər nəqliyyat vasitəsinin sığorta predmetini təhlükəsiz şəkildə daşımaq üçün yararlı vəziyyətdə olmaması və ya üyğün olmaması,
sığorta predmetinin yüklənməsi anında Sığortalının belə yararsızlıq və ya uyğunsuzluq haqqında məlumatının olması halında

5.2 Ğəminin yararlılığı və sığorta predmetini daşıması üçün uyğun olması ilə əlaqədar ehtimal olunan təminat, yalnız o halda pozulmuş hesab ediləcək ki, Sığortalının və ya onun işçilərinin bu haqda məlumatı olsun.

**6.** Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan və ya itkini əhatə etməyəcək

6.1 müharibə, vətəndaş müharibəsi, üsyan, qiyam, inqilab və bunların və ya hər hansı düşmən qüvvənin istifadə etdiyi və ya bu qüvvəyə qarşı istifadə edilən hərbi əməliyyatların səbəb olduğu vətəndaş ixtişaşları

6.2 zəbt etmə, müsadirə, məhdudlaşdırma və ya saxlanılma və onların nəticələri və ya onları törədmək cəhdi.

6.3 tərk edilmiş minalar, torpedolar, partlayıcılar və başqa tərk edilmiş müharibə silahları

**7.** Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan və ya itkini əhatə etməyəcək

7.1 tətillərdə, lokautlarda və həmçinin əmək münaqişələri, ictimai ixtişaşlar və qiyamlarda iştirak edən şəxslərin əməlləri

7.2 tətillər, lokautlar, əmək münaqişələri, qiyamlar və vətəndaş ixtişaşları

7.3 hər hansı terrorçu və ya hər hansı şəxs tərəfindən siyasi motivlərlə törədilən əməllər

## MÜDDƏT

**8.** 8.1 Bu sığortanın fəaliyyəti yüklərin daşımanın həyata keçirilməsi üçün ambarı və ya şəhadətnamədə göstərilən yeri, və ya yüklərin hər hansı başqa saxlanılma yerini tərk etməsi anından başlayır və daşımanın həyata keçirildiyi adi müddət ərzində davam edir və, ya

8.1.1 yük qəbul edənin ambarına və ya onun burada göstərilən təyinat məntəqəsi istiqamətində olan hər hansı başqa yüklərin saxlanılma yerinə çatdırılması zamanı, və ya

8.1.2 aşağıdakı məqsədlər üçün yüklərin Sığortalının öz mülahizəsindən asılı olaraq təyinat məntəqəsinə və ya bu təyinat məntəqəsinə çatmamış hər hansı ambara və ya hər hansı başqa yüklərin saxlanılma yerinə çatdırılması zamanı bunların hansının daha əvvəl baş verməsindən asılı olaraq ya:

8.1.2.1 adi daşıma prosesində həyata keçirilən saxlama istisna olmaqla saxlama üçün; və ya

8.1.2.2 yüklərin yerləşdərilməsi və ya paylanması üçün,

və ya

8.1.3 bu şəhadətnamədə üzrə sığortalanmış yüklərn boşaldılma limanında ğəmidən boşaldılmasından sonra keçmiş 60 günün bitməsindən sonra

8.2 Əğər yüklərin sonuncu boşaldılma limanında boşaldılmasından sonra, lakin bu sığortanın qüvədən düşməsindən əvvəl, yüklər bu sığorta ilə sığortalanan təyinat məntəqəsindən fərqli təyinat məntəqəsinə çatdırılmalıdırsa, bu sığorta yuxarıda nəzərdə tutlmuş sığortanın ləğv edilməsi ilə əlaqədar müddəaların tətbiqi dairəsində qalaraq, belə başqa təyinat məntəqəsinə daşımanın həyata keçirilməsinin başlaması ilə məhdudlaşacaq.

8.3 Bu sığorta (yuxarıda və maddə 9-da nəzərdə tutlmuş ləğv etmə ilə əlaqədar müddəaların tətbiqi dairəsində qalaraq) sığortalının iradəsindən asılı olmayan gecikdirmə, hər hansı yayınma, yüklərin zərurətdən irəli gələrək yenidən boşaldılması və ya yüklənməsi və ya gəmi sahiblərinə və ya fraxtçılarına fraxtlaşdırma müqaviləsi əsasında verilən azadlıqlardan irəli gələn daşıma prosesindəki dəyişiklər zamanı qüvvədə qalmaqda davam edəcək.

**9.** Əğər sığortalının iradəsindən asılı olmayan səbəblərdən daşıma müqaviləsi limanda və ya burada göstərilmiş təyinat məntəqəsindən fərqli yerdə və ya maddə 8-də göstərildiyi kimi daşıma yüklərin daşımasının başa çatmasından əvvəl bitərsə, bu sığorta qüvvədən düşmüş hesab edilir. Bu halda sığortaçılara sığortanın müddətinin uzadılması ilə əlaqədar dərhal məlumat verilib əlavə sığorta mükafatı ödənilmədiyi halda bu sığorta qüvvədə düşmüş hesab ediləcək. Sığortalının bu sığortanın müddətinin uzadılması ilə əlaqədar müraciət etdiyi və əlavə sığorta mükafatını ödədiyi halda bı sığortanın müddəti ya

9.1.bunlardan hansının daha əvvəl baş verməsindən asılı olaraq, yüklərin satılması və ya belə limana və ya yerə çatdırılması anına qədər və ya hər hansı başqa razılığın əldə olunduğu hallar istisna olaraq, bu polis ilə sığortalanan yüklərin, belə limana və ya yerə çatdırılmasından sonra keçmiş 60 gün müddətində
və ya
9.2.əgər yüklər maddə 8-in müddəlarına müvafiq olaraq bu sığortanın qüvvəsi bitənədək, göstərilmiş 60 gün (və ya belə müddətin hər hansı razılaşdırılmış artırılması) ərzində burada göstərilmiş təyinat məntəqəsinə və ya hər hansı başqa məntəqəyə çatdırılıbsa

**10** Bü sığortanın qüvvəyə minməsindən sonra daşıma istiqaməti Sığortalı tərəfindən dəyişdirilərsə, sığortaçı bu haqda dərhal məlumatlandırılmalıdır və bu sığorta tərəflər arasında sığorta mükafatının və şərtlərin əlavə olaraq razılaşdırılması şərtilə qüvvədə qala bilər.

***Tələblər***

**11** 11.1 Sığortalının bu sığorta əsasında təzminat ala bilməsi üçün onun ziyanin vurulması anında

sığorta predmetində sığorta marağı olmalıdır. Maddə 11.1-ə əməl edilməsi şərtilə. sığortalının bu haqda məlumatlı olduğu, sığortaçıların isə bu haqda heç bir məlumatının olmadığı hallar istisna olmaqla, itkinin sığorta müqaviləsinin bağlanmasından əvvəl baş verməsinə baxmayaraq sığortalı bu sığortanın qüvvədə olduğu müddət ərzində baş verən itkilər üçün sığorta ödənişi almaq hüququna malikdir

**12** Bu sığorta ilə əhatə olunan riskin nəticəsində sığorta ilə əhatə olunan daşımanın bu sığorta predmetinin çatdırılmalı olan limandan və ya hər hansı başqa yerdən fərqli limanda və ya yerdə başa çatması halında, sığortaçı sığortalının sığorta predmetinin boşaldılması, saxlanması və ya bu sığorta ilə əhatə olunan təyinat məntəqəsinə qədər çatdırması üçün zəruri olaraq sığortalının məruz qaldığı ağlabatan xərcləri ödəməyi öz öhdəsinə götürür.

Ümumi qəza və ya xilas etmə xərclərini əhatə etməyən bu maddə 12-yə, maddə 4, 5 , 6 və 7-də təsbit edilmiş istisnalar tətbiq edilir və sığortalının və ya onun işçilərinin ehtiyatsızlığı, ödəmə qabiliyyətini itirməsi və ya müflisləşməsinin səbəb olduğu xərcləri əhatə etmir.

**13** Sığorta predmetinin məhv olmasının qaçılmaz olması və ya sığorta predmetinin bərpa edilməsi, təmiri və təyinat məntəqəsinə çatdırılması xərclərinin sığorta predmetinin qiymətinin aşması hallarında tərk edilməsi istisna olmaqla, Konstruktiv Tam İtki ilə əlaqədar tələblər bu sığorta ilə əhatə olunmayacaq.

**14** 14.1 Bu sığorta ilə əhatə olunan yükə münasibətdə sığortalı tərəfindən Artırılmış Dəyər sığortası əldə olunduğu halda, yükün razılaşdırılmış dəyəri, bu sığorta üzrə ümumi sığorta məbləği və itkini əhatə edən bütün artırılmış dəyər sığortaları məbləği həddinə artırılmış hesab ediləcək və bu sığorta üzrə məsuliyyət, bu sığorta üzrə sığorta məbləğinin belə ümumi məbləğə olan nisbəti əsasında müəyyən ediləcək.

Tələbin irəli sürülməsi halında sığortalı sığortaçıları bütün digər sığortalar üzrə əhatə olunan sığorta məbləğləri haqqında sübutlarla təmin edəcək.

14.2 Bu sığortanın artırılmış dəyər əsasında olması halında, aşağıdakı müddəa tətbiq ediləcək:

Yükün razılaşdırılmış dəyəri, ilkin sığorta üzrə ümumi sığorta məbləğinə və həmçinin sığortalı tərəfindən yükə münasibətdə əldə olunmuş və müvafiq itkini əhatə edən bütün artırılmış dəyər sığortalarının məbləğinə bərabər hesab ediləcək və bu sığorta üzrə məsuliyyət, bu sığorta üzrə sığorta məbləğinin belə ümumi sığorta məbləğinə olan nisbəti əsasında müəyyən ediləcək.

Tələbin irəli sürülməsi halında sığortalı sığortaçıları bütün digər sığortalar üzrə sığorta məbləğləri haqqında dəlillərlə təmin edəcək

## BU SIĞORTANIN FAYDASI

**15** Bu sığorta yük daşıyan və ya hər hansı diğər yük saxlayanın xeyrinə olmamalıdır.

## İTKİLƏRIN AZALDILMASI

**16** Bu sığorta ilə əhatə olunan itkiyə münasibətdə sığortalının, onun xidmətçlərinin və agentlərinin vəzifələri aşağıdakılardır:
16.1 belə itkinin qarşısının alınması və ya azaldılması ilə əlaqədar bütün zəruri tədbirəlri görmək

və

16.2 yük daşıyanlar, yük saxlıyanlar və digər üçüncü şəxslərə münasibətdə bütün hüquların lazımi şəkildə qorunması və həyata keçirilməsini təmin etmək

və Sığortaçılar bu sığorta ilə əhatə olunan itkiləri bərpa etməkdən əlavə bu vəzifərin həyata keçirilməsi zamanı sığortalı tərəfindən ağlabatan şəkildə çəkilmiş bütün xərcləri ödəyəcək.

**17** Sığortalı və ya Sığortaçılar tərəfindən sığorta predmetinin qorunması, mühafizə edilməsi və ya bərpa edilməsi məqsədi ilə həyata keçirilmiş tədbirlər əmlaka olan hüquqlardan imtina edilməsinin qəbul edilməsi və ya onlardan imtina edilməsi kimi qiymətləndirilməyəcək və hər iki tərəfin hüquqlarını hər hansı başqa şəkildə pozmayacaq.

## GECİKDIRMƏNİN QARŞISININ ALINMASI

**18** Bu sığortanın şərtlərindən biri sığortalının onun nəzarəti altında olan şəraitlərdə ağlabatan müdətdə hərəkət etməsidir.

## HÜQUQ VƏ TƏCRÜBƏ

**19** Bu sığorta Azərbaycan hüququ əsasında tənzim ediləcək.

**Qeyd: -** Sığortalı bu sığorta ilə əhatə olunan hadisə haqqında xəbərdar olan kimi dərhal bu haqda sığortaçıları məlumatlandırmalıdır və Sığortalının bu sığorta üzrə sığorta ödənişi almaq hüququ onun bu öhdəliyə əməl etməsindən birbaşa asılıdır.

## ƏLAVƏ 2. LONDON SIĞORTAÇILAR İNSTİTUTUNUN YÜK SIĞORTASI ŞƏRTLƏRİ (B) (CL253)

*Sığorta olunan risklər*

**1** Aşağıda sadalanan 4,5,6 və 7- ci bəndlər istisna olmaqla bu sığorta əhatə edir:

**1.1 Aşağıdakılara aid ediləcək risklər nəticəsində sığorta predmetinə dəyən ziyan və zərərlər**

1.1.1 yanğın və partlayış
1.1.2 Su və ya hava nəqliyyat vasitəsinin saya oturması,batması və ya çevrilməsi
1.1.3 yerüstü daşıma vasitələrinin qəzaya uğraması(relsdən çıxması) və ya aşması
1.1.4 Su,hava və ya yerüstü nəqliyyat vasitəsinin hər hansı bir xarici cismlə təması və ya toqquşması
1.1.5 məcburi dayanma limanında yükün boşaldılması
1.1.6 zəlzələ,vulkan püskürməsi və ildırım vurması

**1.2 Bu risklər nəticəsində sığorta predmetinə dəyən ziyan və zərərlər**

1.2.1 təhlükə anında bütün yükün və ya gəminin qurtarılması üçün yükün bir hissəsinin könüllü tullanması
1.2.2 qəzaya görə yükün bortdan kənara atılması və yükün bortdan yuyub aparılması
1.2.3 dəniz,göl və ya çay suyunun gəmiyə,hava gəmisinə,gəminin anbarı,daşıma vasitəsinə,konteynerə,taralara və saxlanılma yerlərinə daxil olması
1.3 Su nəqliyyat vasitəsini yükləmə və ya boşaltma zamanı bortdan kənara düşmüş hər hansı bağlamanın tam itkisi

2 Bu sığorta, daşıma müqaviləsi və/və ya müvafiq qanun və təcrübə əsasında müəyyən edilən və hesablanan, 4,5,6, və 7-ci bəndlərdə və ya bu sığortanın hər hansı başqa yerində əks olunmuş istisnalarda göstərilmiş səbəblərdən fərqli səbəblər üzündən baş verən itkinin qarşısının alınması məqsədi ilə çəkilən ümumi qəza və ya xilas etmə xərclərini əhatə edir.

3 Bu sığorta daşıma müqaviləsinin «Toqquşmada Hər İkisi Təqsirlidir» maddəsi üzrə sığortalının bu sığorta ilə əhatə olunan zərərlərlə əlaqədar yaranan məsuliyyətinin müvafiq hissəsi üçün sığorta təminatı verir. Göstərilmiş maddə üzrə gəmi sahibləri tərəfindən hər hansı tələbin irəli sürülməsi halında, sığortalı, bu haqda sığortaçıları məlumatlandırmağı öhdəsinə götürür. Sığortaçılar öz hesablarına Sığortalını bu cür tələblərə qarşı müdafiə etmək hüququna malikdirlər.

***İstİsnalar***

4 Bu sığorta heç bir halda aşağıdakıları əhatə etməyəcək:

4.1 Sığortalının qərəzli hərəkətlərinin səbəb olduğu itki, ziyan və başqa xərclər

4.2 Təbii sızma, çəkinin və ya həcmin təbii itirilməsi, sığorta obyektinin təbii köhnəlməsi.

4.3 Sığorta obyektinin qablaşdırılmasının kifayət etməməsi və ya uyğun olmaması və ya sığorta obyektinin hazırlanmasında qüsurların olması səbəbindən baş vermiş ziyan, itki və ya çəkilmiş xərclər ( bu 4.3-cü maddənin məqsədləri üçün «qablaşdırma» sözü onun yalnız sığortanın qüvvəyə minməsindən əvvəl və Sığortalı və ya onun işçiləri tərəfindən həyata keçirilməsi halında konteynerdə yerləşdirmə mənasını verəcək).

4.4 Sığorta obyektinin daxili qüsurları və ya təbii xassələrinin səbəb olduğu ziyan, itki və ya və ya çəkilmiş xərclər.

4.5 Gecikdirmənin səbəb olduğu ziyan, itki və ya xərclər, hətda belə gecikdirmə sığortalanmış riskin nəticəsində baş vermiş olsa belə (Yuxarıda təsbit edilmiş 2-ci maddənin əsasında ödənilməli olan xərclər istisna olmaqla).

4.6 Gəmi sahiblərinin, fraxtçılarının və ya istismarçılarının ödəmə qabiliyyətini itirməsi və ya öz maliyyə öhdəliklərini yerinə yetirə bilməməsinin səbəb olduğu ziyan, itki və ya başqa xərclər.

4.7 Sığorta obyektinə və ya onun hər hansı bir hissəsinin hər hansı şəxsin və ya şəxslərin qərəzli hərəkətləri nəticəsində ziyan dəyməsi və ya onun məhv edilməsi.

4.8 Tərkibində hər hansı atom və ya nüvə bölgüsü və/və ya sintezi və ya hər hansı başqa anoloci reaksiya olan və ya nüvə enercisi istifadə edilən silahın istifadəsinin səbəb olduğu ziyan, itki və ya xərclər.

5 5.1 Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan, itki və ya xərcləri əhatə etməyəcək
gəminin və ya bərənin istifadəyə yararlı vəziyətdə olmaması,
konteynerin, gəminin, bərənin və ya hər hansı digər nəqliyyat vasitəsinin sığorta obyektini təhlükəsiz şəkildə daşımaq üçün yararlı vəziyətdə olmaması və ya üyğun olmaması,
sığorta obyektinin yüklənməsi anında Sığortalının belə yararsızlıq və ya uyğunsuzluq

haqqında məlumatının olması halında

5.2 Ğəminin yararlılığı və sığorta obyektini daşıması üçün uyğun olması ilə əlaqədar ehtimal olunan təminat yalnız o halda pozulmuş hesab ediləcək ki, Sığortalınınn və ya onun işçilərinin bu haqda məlumatı olsun.

**6** Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan və ya itkini əhatə etməyəcək

6.1 müharibə, vətəndaş müharibəsi, üsyan, qiyam, inqilab və bunların və ya hər hansı düşmən qüvvənin istifadə etdiyi və ya bu qüvvəyə qarşı istifadə edilən hərbi əməliyyatların səbəb olduğu vətəndaş ixtişaşları

6.2 zəbt etmə, müsadirə, məhdudlaşdırma və ya saxlanılma və onların nəticələri və ya onları törədmək cəhdi.

6.3 tərk edilmiş minalar, torpedolar, partlayıcılar və başqa tərk edilmiş müharibə silahları

**7** Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan və ya itkini əhatə etməyəcək

7.1 tətillərdə, lokautlarda və həmçinin əmək münaqişələri, ictimai ixtişaşlar və qiyamlarda iştirak edən şəxslərin əməlləri

7.2 tətillər, lokautlar, əmək münaqişələri, qiyamlar və vətəndaş ixtişaşları

7.3 hər hansı terrorçu və ya hər hansı şəxs tərəfindən siyasi motivlərlə törədilən əməllər

**Müddət**

**8** 8.1.Bu sığortanın fəaliyyəti yüklərin daşımanın həyata keçirilməsi üçün ambarı və ya polisdə göstərilən yeri, və ya yüklərin hər hansı başqa saxlanılma yerini tərk etməsi anından başlayır və daşımanın həyata keçirildiyi adi müddət ərzində davam edir və, ya

8.1.1. yük qəbul edənin ambarına və ya, onun burada göstərilən təyinat məntəqəsi istiqamətində olan, hər hansı başqa yüklərin saxlanılması yerinə çatdırılması zamanı, və ya

8.1.2. aşağıdakı məqsədlər üçün yüklərin Sığortalının öz mülahizəsindən asılı olaraq təyinat məntəqəsinə və ya bu təyinat məntəqəsinə çatmamış hər hansı ambara və ya hər hansı başqa yüklərin saxlanılma yerinə çatdırılması zamanı bunların hansının daha əvvəl baş verməsindən asılı olaraq ya:

8.1.2.1.adi daşıma prosesində həyata keçirilən saxlama istisna olmaqla saxlama üçün; və ya

8.1.2.2.yüklərin yerləşdərilməsi və ya paylanması üçün,

və ya

8.1.3. bu polisdə üzrə sığortalanmış yüklərn boşaldılma limanında ğəmidən boşaldılmasından sonra keçmiş 60 günün bitməsindən sonra

8.2. Əğər yüklərin sonuncu boşaldılma limanında boşaldılmasından sonra, lakin bu sığortanın qüvədən düşməsindən əvvəl, yüklər bu sığorta ilə sığortalanan təyinat məntəqəsindən fərqli təyinat məntəqəsinə çatdırılmalıdırsa, bu sığorta yuxarıda nəzərdə tutlmuş sığortanın ləğv edilməsi ilə əlaqədar müddəaların tətbiqi dairəsində qalaraq, belə başqa təyinat

məntəqəsinə daşımanın həyata keçirilməsinin başlaması ilə məhdudlaşacaq.

8.3. Bu sığorta (yuxarıda və maddə 9-da nəzərdə tutlmuş ləğv etmə ilə əlaqədar müddəaların tətbiqi dairəsində qalaraq) sığortalının iradəsindən asılı olmayan gecikdirmə, hər hansı yayınma, yüklərin zərurətdən irəli gələrək yenidən boşaldılması və ya yüklənməsi və ya gəmi sahiblərinə və ya fraxtçılarına fraxtlaşdırma müqaviləsi əsasında verilən azadlıqlardan irəli gələn daşıma prosesindəki dəyişiklər zamanı qüvvədə qalmaqda davam edəcək.

**9** Əğər sığortalının iradəsindən asılı olmayan səbəblərdən daşıma müqaviləsi limanda və ya burada göstərilmiş təyinat məntəqəsindən fərqli yerdə və ya maddə 8-də göstərildiyi kimi daşıma yüklərin daşımasının başa çatmasından əvvəl bitərsə, bu sığorta qüvvədən düşmüş hesab edilir. Bu halda sığortaçılara sığortanın müddətinin uzadılması ilə əlaqədar dərhal məlumat verilib əlavə sığorta mükafatı ödənilmədiyi halda bu sığorta qüvvədə düşmüş hesab ediləcək. Sığortalının bu sığortanın müddətinin uzadılması ilə əlaqədar müraciət etdiyi və əlavə sığorta mükafatını ödədiyi halda bı sığortanın müddəti ya

**9.1** bunlardan hansının daha əvvəl baş verməsindən asılı olaraq, yüklərin satılması və ya belə limana və ya yerə çatdırılması anına qədər və ya hər hansı başqa razılığın əldə olunduğu hallar istisna olaraq, bu polis ilə sığortalanan yüklərin, belə limana və ya yerə çatdırılmasından sonra keçmiş 60 gün müddətində

və ya

**9.2** əgər yüklər maddə 8-in müddəalarına müvafiq olaraq bu sığortanın qüvvəsi bitənədək, göstərilmiş 60 gün (və ya belə müddətin hər hansı razılaşdırılmış artırılması) ərzində burada göstərilmiş təyinat məntəqəsinə və ya hər hansı başqa məntəqəyə çatdırılıbsa

**10** Bü sığortanın qüvvəyə minməsindən sonra daşıma istiqaməti Sığortalı tərəfindən dəyişdirilərsə, sığortaçı bu haqda dərhal məlumatlandırılmalıdır və bu sığorta tərəflər arasında sığorta mükafatının və şərtlərin əlavə olaraq razılaşdırılması şərtilə qüvvədə qala bilər.

***Tələblər***

**11** 11.1Sığortalının bu sığorta əsasında təzminat ala bilməsi üçün onun ziyanin vurulması anında sığorta obyektində sığorta marağı olmalıdır. Maddə 11.1-ə əməl edilməsi şərtilə. sığortalının bu haqda məlumatlı olduğu, sığortaçıların isə bu haqda heç bir məlumatının olmadığı hallar istisna olmaqla, itkinin sığorta müqaviləsinin bağlanmasından əvvəl baş verməsinə baxmayaraq sığortalı bu sığortanın qüvvədə olduğu müddət ərzində baş verən itkilər üçün sığorta ödənişi almaq hüququna malikdir

**12** Bu sığorta ilə əhatə olunan riskin nəticəsində sığorta ilə əhatə olunan daşımanın bu sığorta obyektinin çatdırılmalı olan limandan və ya hər hansı başqa yerdən fərqli limanda və ya yerdə başa çatması halında, sığortaçı sığortalının sığorta obyektinin boşaldılması, saxlanması və ya bu sığorta ilə əhatə olunan təyinat məntəqəsinə qədər çatdırması üçün zəruri olaraq sığortalının məruz qaldığı ağlabatan xərcləri ödəməyi öz öhdəsinə götürür.

Ümumi qəza və ya xilas etmə xərclərini əhatə etməyən bu maddə 12-yə, maddə 4, 5 , 6 və 7-də təsbit edilmiş istisnalar tətbiq edilir və sığortalının və ya onun işçilərinin ehtiyatsızlığı, ödəmə qabiliyyətini itirməsi və ya müflisləşməsinin səbəb olduğu xərcləri əhatə etmir.

**13** Sığorta obyektinin məhv olmasının qaçılmaz olması və ya sığorta obyektinin bərpa edilməsi,

təmiri və təyinat məntəqəsinə çatdırılması xərclərinin sığorta obyektinin qiymətinin aşması hallarında tərk edilməsi istisna olmaqla, Konstruktiv Tam İtki ilə əlaqədar tələblər bu sığorta ilə əhatə olunmayacaq.

**14** 14.1.Bu sığorta ilə əhatə olunan yükə münasibətdə sığortalı tərəfindən Artırılmış Dəyər sığortası əldə olunduğu halda, yükün razılaşdırılmış dəyəri, bu sığorta üzrə ümumi sığorta məbləği və itkini əhatə edən bütün artırılmış dəyər sığortaları məbləği həddinə artırılmış hesab ediləcək və bu sığorta üzrə məsuliyyət, bu sığorta üzrə sığorta məbləğinin belə ümumi məbləğə olan nisbəti əsasında müəyyən ediləcək.

Tələbin irəli sürülməsi halında sığortalı sığortaçıları bütün digər sığortalar üzrə əhatə olunan sığorta məbləğləri haqqında sübutlarla təmin edəcək.

14.2.Bu sığortanın artırılmış dəyər əsasında olması halında aşağıdakı müddəa tətbiq ediləcək:

Yükün razılaşdırılmış dəyəri ilkin sığorta üzrə ümumi sığorta məbləğinə və həmçinin sığortalı tərəfindən yükə münasibətdə əldə olunmuş və müvafiq itkini əhatə edən bütün artırılmış dəyər sığortalarının məbləğinə bərabər hesab ediləcək və bu sığorta üzrə məsuliyyət, bu sığorta üzrə sığorta məbləğinin belə ümumi sığorta məbləğinə olan nisbəti əsasında müəyyən ediləcək.

Tələbin irəli sürülməsi halında sığortalı sığortaçıları bütün digər sığortalar üzrə sığorta məbləğləri haqqında dəlillərlə təmin edəcək

## BU SIĞORTANIN FAYDASI

**15** Bü sığorta yük daşıyan və ya hər hansı diğər yük saxlayanın xeyrinə olmamalıdır.

## İTKİLƏRİN AZALDILMASI

**16** bu sığorta ilə əhatə olunan itkiyə münasibətdə sığortalının, onun xidmətçlərinin və agentlərinin vəzifələri aşağıdakılardır:

16.1.belə itkinin qarşısının alınması və ya azaldılması ilə əlaqədar bütün zəruri tədbirəlri görmək və

16.2.yük daşıyanlar, yük saxlıyanlar və digər üçüncü şəxslərə münasibətdə bütün hüquların lazımi şəkildə qorunması və həyata keçirilməsini təmin etmək

və Sığortaçılar bu sığorta ilə əhatə olunan itkiləri bərpa etməkdən əlavə bu vəzifərin həyata keçirilməsi zamanı sığortalı tərəfindən ağlabatan şəkildə çəkilmiş bütün xərcləri ödəyəcək.

**17** Sığortalı və ya Sığortaçılar tərəfindən sığorta obyektinin qorunması, mühafizə edilməsi və ya bərpa edilməsi məqsədi ilə həyata keçirilmiş tədbirlər əmlaka olan hüquqlardan imtina edilməsinin qəbul edilməsi və ya onlardan imtina edilməsi kimi qiymətləndirilməyəcək və hər iki tərəfin hüquqlarını hər hansı başqa şəkildə pozmayacaq.

## GECİKDİRMƏNİN QARŞISININ ALINMASI

**18** Bu sığortanın şərtlərindən biri sığortalının onun nəzarəti altında olan şəraitlərdə ağlabatan müdətdə hərəkət etməsidir.

## HÜQUQ VƏ TƏCRÜBƏ

**19** Bu sığorta Azərbyacan hüququ ilə tənzim ediləcək.

**Qeyd: -** Sığortalı bu sığorta ilə əhatə olunan hadisə haqqında xəbərdar olan kimi dərhal bu haqda sığortaçıları məlumatlandırmalıdır və Sığortalının bu sığorta üzrə sığorta ödənişi almaq hüququ onun bu öhdəliyə əməl etməsindən birbaşa asılıdır.

## ƏLAVƏ 3. LONDON SIĞORTAÇILAR İNSTİTUTUNUN YÜK SIĞORTASI ŞƏRTLƏRİ(C) (CL254)

***Sığorta olunan risklər***

**1** Aşağıda sadalanan 4,5,6 və 7- ci bəndlər istisna olmaqla bu sığorta əhatə edir:

1.1 sığorta obyektinə aşağıdakılar nəticəsində ziyan vurulması və ya onun məhv olması:

1.1.1 yanğın və ya partlayış;
1.1.2 gəminin,bərənin və ya qayığın saya oturması, sahilə çıxması, batması və ya çevrilməsi;
1.1.3 yerüstü nəqliyyat vasitəsinin aşması və ya dəmir yolu xəttindən çıxması;
1.1.4 gəminin, bərənin və ya qayığın sudan başqa hər hansı digər xarici obyektlə toqquşması;
1.1.5 fəlakət limanında yükün boşaldılması;

1.2 sığorta obyektinə aşağıdakılar nəticəsində ziyan vurulması və ya onun məhv olması;

1.2.1 ymumi qəza zamanı bilərəkdən edilmiş itkilər;
1.2.2 gəminin qəza etməsi təhlükəsi zamanı gəmi göərtəsindən dənizə atılan yüklər

**2** Bu sığorta, daşıma müqaviləsi və/və ya müvafiq qanun və təcrübə əsasında müəyyən edilən və hesablanan, 4,5,6, və 7-ci bəndlərdə və ya bu sığortanın hər hansı başqa yerində əks olunmuş istisnalarda göstərilmiş səbəblərdən fərqli səbəblər üzündən baş verən itkinin qarşısının alınması məqsədi ilə çəkilən ümumi qəza və ya xilas etmə xərclərini əhatə edir.

**3** Bu sığorta daşıma müqaviləsinin «Toquşmada Hər İkisi Təqsirlidir» maddəsi üzrə sığortalının bu sığorta ilə əhatə olunan zərərlərlə əlaqədar yaranan məsuliyyətinin müvafiq hissəsi üçün sığorta təminatı verir. Göstərilmiş maddə üzrə gəmi sahibləri tərəfindən hər hansı tələbin irəli sürülməsi halında, sığortalı, bu haqda sığortaçıları məlumatlandırmağı öhdəsinə götürür. Sığortaçılar öz hesablarına Sığortalı bu cür tələblərə qarşı müdafiə etmək hüququna malikdirlər.

***İstİsnalar***

**4** Bu sığorta heç bir halda aşağıdakıları əhatə etməyəcək:

4.1 Sığortalının qərəzli hərəkətlərinin səbəb olduğu itki, ziyan və başqa xərclər

4.2 Təbii sızma, çəkinin və ya həcmin təbii itirilməsi, sığorta obyektinin təbii köhnəlməsi.

4.3 Sığorta obyektinin qablaşdırılmasının kifayət etməməsi və ya uyğun olmaması və ya sığorta obyektinin hazırlanmasında qüsurların olması səbəbindən baş vermiş ziyan, itki və ya çəkilmiş xərclər (bu 4.3-cü maddənin məqsədləri üçün «qablaşdırma» sözü onun yalnız sığortanın qüvvəyə minməsindən əvvəl və Sığortalı və ya onun işçiləri tərəfindən həyata keçirilməsi halında konteynerdə yerləşdirmə mənasını verəcək).

4.4 Sığorta obyektinin daxili qüsurları və ya təbii xassələrinin səbəb olduğu ziyan, itki və ya və ya çəkilmiş xərclər.

4.5 Gecikdirmənin səbəb olduğu ziyan, itki və ya xərclər, hətda belə gecikdirmə sığortalanmış riskin nəticəsində baş vermiş olsa belə (Yuxarıda təsbit edilmiş 2-ci maddənin əsasında ödənilməli olan xərclər istisna olmaqla).

4.6 Gəmi sahiblərinin, fraxtçılarının və ya istismarçılarının ödəmə qabiliyyətini itirməsi və ya öz maliyyə öhdəliklərini yerinə yetirə bilməməsinin səbəb olduğu ziyan, itki və ya başqa xərclər.

4.7 Sığorta obyektinə və ya onun hər hansı bir hissəsinin hər hansı şəxsin və ya şəxslərin qərəzli hərəkətləri nəticəsində ziyan dəyməsi və ya onun məhv edilməsi.

4.8 Tərkibində hər hansı atom və ya nüvə bölgüsü və/və ya sintezi və ya hər hansı başqa anoloci reaksiya olan və ya nüvə enercisi istifadə edilən silahın istifadəsinin səbəb olduğu ziyan, itki və ya xərclər.

**5** 5.1 Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan, itki və ya xərcləri əhatə etməyəcək

gəminin və ya bərənin istifadəyə yararlı vəziyətdə olmaması,

konteynerin, gəminin, bərənin və ya hər hansı digər nəqliyyat vasitəsinin sığorta obyektini təhlükəsiz şəkildə daşımaq üçün yararlı vəziyətdə olmaması və ya üyğün olmaması,

sığorta obyektinin yüklənməsi anında Sığortalının belə yararsızlıq və ya uyğunsuzluq haqqında məlumatının olması halında

5.2 Gəminin yararlılığı və sığorta obyektini daşıması üçün uyğun olması ilə əlaqədar ehtimal olunan təminat yalnız o halda pozulmuş hesab ediləcək ki, Sığortalının və ya onun işçilərinin bu haqda məlumatı olsun.

**6** Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan və ya itkini əhatə etməyəcək

6.1 müharibə, vətəndaş müharibəsi, üsyan, qiyam, inqilab və bunların və ya hər hansı düşmən qüvvənin istifadə etdiyi və ya bu qüvvəyə qarşı istifadə edilən hərbi əməliyyatların səbəb olduğu vətəndaş ixtişaşları

6.2 zəbt etmə, müsadirə, məhdudlaşdırma və ya saxlanılma və onların nəticələri və ya onları törədmək cəhdi.

6.3 tərk edilmiş minalar, torpedolar, partlayıcılar və başqa tərk edilmiş müharibə silahları

**7** Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan və ya itkini əhatə etməyəcək

7.1 tətillərdə, lokautlarda və həmçinin əmək münaqişələri, ictimai ixtişaşlar və qiyamlarda iştirak edən şəxslərin əməlləri

7.2 tətillər, lokautlar, əmək münaqişələri, qiyamlar və vətəndaş ixtişaşları

7.3 hər hansı terrorçu və ya hər hansı şəxs tərəfindən siyasi motivlərlə törədilən əməllər

## Müddət

8 8.1.Bu sığortanın fəaliyyəti yüklərin daşımanın həyata keçirilməsi üçün ambarı və ya polisdə göstərilən yeri, və ya yüklərin hər hansı başqa saxlanılma yerini tərk etməsi anından başlayır və daşımanın həyata keçirildiyi adi müddət ərzində davam edir və, ya

8.1.1. yük qəbul edənin ambarına və ya, onun burada göstərilən təyinat məntəqəsi istiqamətində olan, hər hansı başqa yüklərin saxlanılması yerinə çatdırılması zamanı, və ya

8.1.2. aşağıdakı məqsədlər üçün yüklərin Sığortalının öz mülahizəsindən asılı olaraq təyinat məntəqəsinə və ya bu təyinat məntəqəsinə çatmamış hər hansı ambara və ya hər hansı başqa yüklərin saxlanılma yerinə çatdırılması zamanı bunların hansının daha əvvəl baş verməsindən asılı olaraq ya:

8.1.2.1.adi daşıma prosesində həyata keçirilən saxlama istisna olmaqla saxlama üçün; və ya

8.1.2.2.yüklərin yerləşdərilməsi və ya paylanması üçün,

və ya

8.1.3. bu polisdə üzrə sığortalanmış yüklərn boşaldılma limanında ğəmidən boşaldılmasından sonra keçmiş 60 günün bitməsindən sonra

8.2. Əğər yüklərin sonuncu boşaldılma limanında boşaldılmasından sonra, lakin bu sığortanın qüvədən düşməsindən əvvəl, yüklər bu sığorta ilə sığortalanan təyinat məntəqəsindən fərqli təyinat məntəqəsinə çatdırılmalıdırsa, bu sığorta yuxarıda nəzərdə tutlmuş sığortanın ləğv edilməsi ilə əlaqədar müddəaların tətbiqi dairəsində qalaraq, belə başqa təyinat məntəqəsinə daşımanın həyata keçirilməsinin başlaması ilə məhdudlaşacaq.

8.3. Bu sığorta (yuxarıda və maddə 9-da nəzərdə tutlmuş ləğv etmə ilə əlaqədar müddəaların tətbiqi dairəsində qalaraq) sığortalının iradəsindən asılı olmayan gecikdirmə, hər hansı yayınma, yüklərin zərurətdən irəli gələrək yenidən boşaldılması və ya yüklənməsi və ya gəmi sahiblərinə və ya fraxtçılarına fraxtlaşdırma müqaviləsi əsasında verilən azadlıqlardan irəli gələn daşıma prosesindəki dəyişiklər zamanı qüvvədə qalmaqda davam edəcək.

9 Əğər sığortalının iradəsindən asılı olmayan səbəblərdən daşıma müqaviləsi limanda və ya burada göstərilmiş təyinat məntəqəsindən fərqli yerdə və ya maddə 8-də göstərildiyi kimi daşıma yüklərin daşımasının başa çatmasından əvvəl bitərsə, bu sığorta qüvvədən düşmüş hesab edilir. Bu halda sığortaçılara sığortanın müddətinin uzadılması ilə əlaqədar dərhal məlumat verilib əlavə sığorta mükafatı ödənilmədiyi halda bu sığorta qüvvədə düşmüş hesab ediləcək. Sığortalının bu sığortanın müddətinin uzadılması ilə əlaqədar müraciət etdiyi və əlavə sığorta mükafatını ödədiyi halda bı sığortanın müddəti ya

9.1.bunlardan hansının daha əvvəl baş verməsindən asılı olaraq, yüklərin satılması və ya belə limana və ya yerə çatdırılması anına qədər və ya hər hansı başqa razılığın əldə olunduğu hallar istisna olaraq, bu polis ilə sığortalanan yüklərin, belə limana və ya yerə çatdırılmasından sonra keçmiş 60 gün müddətində

və ya

9.2.əgər yüklər maddə 8-in müddəlarına müvafiq olaraq bu sığortanın qüvvəsi bitənədək, göstərilmiş 60 gün (və ya belə müddətin hər hansı razılaşdırılmış artırılması) ərzində burada göstərilmiş təyinat məntəqəsinə və ya hər hansı başqa məntəqəyə çatdırılıbsa

10 Bü sığortanın qüvvəyə minməsindən sonra daşıma istiqaməti Sığortalı tərəfindən dəyişdirilərsə, sığortaçı bu haqda dərhal məlumatlandırılmalıdır və bu sığorta tərəflər arasında sığorta mükafatının və şərtlərin əlavə olaraq razılaşdırılması şərtilə qüvvədə qala bilər.

***Tələblər***

11 11.1Sığortalının bu sığorta əsasında təzminat ala bilməsi üçün onun ziyanin vurulması anında sığorta obyektində sığorta marağı olmalıdır. Maddə 11.1-ə əməl edilməsi şərtilə. sığortalının bu haqda məlumatlı olduğu, sığortaçıların isə bu haqda heç bir məlumatının olmadığı hallar istisna olmaqla, itkinin sığorta müqaviləsinin bağlanmasından əvvəl baş verməsinə baxmayaraq sığortalı bu sığortanın qüvvədə olduğu müddət ərzində baş verən itkilər üçün sığorta ödənişi almaq hüququna malikdir

12 Bu sığorta ilə əhatə olunan riskin nəticəsində sığorta ilə əhatə olunan daşımanın bu sığorta obyektinin çatdırılmalı olan limandan və ya hər hansı başqa yerdən fərqli limanda və ya yerdə başa çatması halında, sığortaçı sığortalının sığorta obyektinin boşaldılması, saxlanması və ya bu sığorta ilə əhatə olunan təyinat məntəqəsinə qədər çatdırması üçün zəruri olaraq sığortalının məruz qaldığı ağlabatan xərcləri ödəməyi öz öhdəsinə götürür.

Ümumi qəza və ya xilas etmə xərclərini əhatə etməyən bu maddə 12-yə, maddə 4, 5 , 6 və 7-də təsbit edilmiş istisnalar tətbiq edilir və sığortalının və ya onun işçilərinin ehtiyatsızlığı, ödəmə qabiliyyətini itirməsi və ya müflisləşməsinin səbəb olduğu xərcləri əhatə etmir.

13 Sığorta obyektinin məhv olmasının qaçılmaz olması və ya sığorta obyektinin bərpa edilməsi, təmiri və təyinat məntəqəsinə çatdırılması xərclərinin sığorta obyektinin qiymətinin aşması hallarında tərk edilməsi istisna olmaqla, Konstruktiv Tam İtki ilə əlaqədar tələblər bu sığorta ilə əhatə olunmayacaq.

14 14.1.Bu sığorta ilə əhatə olunan yükə münasibətdə sığortalı tərəfindən Artırılmış Dəyər sığortası əldə olunduğu halda, yükün razılaşdırılmış dəyəri, bu sığorta üzrə ümumi sığorta məbləği və itkini əhatə edən bütün artırılmış dəyər sığortaları məbləği həddinə artırılmış hesab ediləcək və bu sığorta üzrə məsuliyyət, bu sığorta üzrə sığorta məbləğinin belə ümumi məbləğə olan nisbəti əsasında müəyyən ediləcək.

Tələbin irəli sürülməsi halında sığortalı sığortaçıları bütün digər sığortalar üzrə əhatə olunan sığorta məbləğləri haqqında sübutlarla təmin edəcək.

14.2.Bu sığortanın artırılmış dəyər əsasında olması halında aşağıdakı müddəa tətbiq ediləcək:

Yükün razılaşdırılmış dəyəri ilkin sığorta üzrə ümumi sığorta məbləğinə və həmçinin sığortalı tərəfindən yükə münasibətdə əldə olunmuş və müvafiq itkini əhatə edən bütün artırılmış dəyər sığortalarının məbləğinə bərabər hesab ediləcək və bu sığorta üzrə məsuliyyət, bu sığorta üzrə sığorta məbləğinin belə ümumi sığorta məbləğinə olan nisbəti əsasında müəyyən ediləcək.

Tələbin irəli sürülməsi halında sığortalı sığortaçıları bütün digər sığortalar üzrə sığorta məbləğləri haqqında dəlillərlə təmin edəcək

**BU SIĞORTANIN FAYDASI**

15 Bü sığorta yük daşıyan və ya hər hansı diğər yük saxlayanın xeyrinə olmamalıdır.

## İTKİLƏRİN AZALDILMASI

**16** bu sığorta ilə əhatə olunan itkiyə münasibətdə sığortalənın, onun xidmətçlərinin və agentlərinin vəzifələri aşağıdakılardır:

16.1.belə itkinin qarşısının alınması və ya azaldılması ilə əlaqədar bütün zəruri tədbirəlri görmək

və

16.2.yük daşıyanlar, yük saxlıyanlar və digər üçüncü şəxslərə münasibətdə bütün hüquların lazımi şəkildə qorunması və həyata keçirilməsini təmin etmək

və Sığortaçılar bu sığorta ilə əhatə olunan itkiləri bərpa etməkdən əlavə bu vəzifərin həyata keçirilməsi zamanı sığortalı tərəfindən ağlabatan şəkildə çəkilmiş bütün xərcləri ödəyəcək.

**17** Sığortalı və ya Sığortaçılar tərəfindən sığorta obyektinin qorunması, mühafizə edilməsi və ya bərpa edilməsi məqsədi ilə həyata keçirilmiş tədbirlər əmlaka olan hüquqlardan imtina edilməsinin qəbul edilməsi və ya onlardan imtina edilməsi kimi qiymətləndirilməyəcək və hər iki tərəfin hüquqlarını hər hansı başqa şəkildə pozmayacaq.

## GECİKDIRMƏNİN QARŞISININ ALINMASI

**18** Bu sığortanın şərtlərindən biri sığortalının onun nəzarəti altında olan şəraitlərdə ağlabatan müdətdə hərəkət etməsidir.

## HÜQUQ VƏ TƏCRÜBƏ

**19** Bu sığorta Azərbyacan hüququ ilə tənzim ediləcək.

**Qeyd: -** Sığortalı bu sığorta ilə əhatə olunan hadisə haqqında xəbərdar olan kimi dərhal bu haqda sığortaçıları məlumatlandırmalıdır və Sığortalının bu sığorta üzrə sığorta ödənişi almaq hüququ onun bu öhdəliyə əməl etməsindən birbaşa asılıdır.

## ƏLAVƏ 4. LONDON SIĞORTAÇILAR İNSTİTUTUNUN YÜK SIĞORTASI "TƏTİLLƏR HAQQINDA MADDƏ" (CL256).

## SIĞORTA İLƏ ƏHATƏ OLUNAN RİSKLƏR

**1.** Bu sığorta, aşağıdakı 3 və 4 Maddələrində nəzərdə tutulanlardan başqa, aşağıdakıların səbəb olduğu sığorta olunmuş obyektə vurulan itki və ya ziyanı əhatə edir:

1.1 tətilçilər, işdən xaric olunmuş işçilər və ya əmək intizamsızlığında iştirak edən şəxslər, qiyamlar və ya mülki həyəcan (qarışıqlıqlar);

1.2 hər hansı terrorist və ya siyasi motivdən çıxış edən hər hansı şəxs.

**2.** Bu sığorta kirələmə müqaviləsinə və/ və ya tənzimləyici qanun və ya prosessual normalara əsasən nizamlanan və ya müəyyən olunan, bu maddələrə əsasən sığorta olunan riskdən baş verə biləcək itikiyə yol verməmək və ya buna yol verilməməsi ilə əlaqədar çəkilmiş ümumi qəza və xilasemə xərclərini sığorta edir.

## İSTİSNA HALLAR

**3.** Bu sığorta heç bir halda aşağıdakıları əhatə etmir:

3.1 Sığorta olunanın qəsdən törətdiyi pis davranışına aid edilən irki, ziyan və ya xərc;

3.2 sığorta olunmuş obyektin adi sızması, çəkisində və ya həcmində baş verən adi itki, yaxud adi köhnəlmə;

3.3 sığorta olunmuş obyektin qablaşdırılma və ya hazırlanmasının qeyri-qənaətbəxş olmasının və ya uyğunsuzluğunun səbəb olduğu itki, ziyan və ya xərc (Bu 3.3 Maddəsinin məqsədi üçün "qablaşdırma" sözünə konteynerə və ya qaldırıcı vaqona yerləşdirmə daxil olduğu hesab olunur, lakin, yalnız o zaman ki, bu cür yerləşdirmə bu sığortsa üzrə məsuliyyətin başlanmasından əvvəl, Sığorta olunan və ya onun xidmətçiləri tərəfindən hayata keçirilmişdir.);

3.4 sığorta olunmuş obyektin ayrılmaz qüsuru və ya xarakterindən baş verən itki, ziyan və ya xərc;

3.5 gecikmənin bilavasitə səbəb olduğu itki, ziyan və ya xərc, hətta əgər gecukmə sığorta olunmuş risk nəticəsində baş vermişdirsə (yuxarıdakı 2-ci Maddəyə əsasən ödənilən xərclərdən başqa)

3.6 Gəmi sahiblərinin, menecerlərinin, kirayəçilərinin və ya operatorlarının ödəmə qabiliyyətinin itirməsi və ya maliyyə öhdəliklərinin yerinə yetirməməsindən meydana gələn itki, ziyan və ya xərc;

3.7 hər hansı tətil, lokaut (sahibkarlar tərəfindən müəssisənin bağlanması və işçilərin öz tələblərini geri götürməyə məcbur edilməsi üçün işçilərin kütləvi şəkildə işdən azad edilməsi), əmək intizamsızlığı, qiyam və ya mülki iğtişaşlardan meydana gələn itki, ziyan və ya xərc;

3.8 səfər və ya sərgüzəştin itkisinə və ya uğursuz olmasına əsaslanan hər hansı iddia;

3.9 atom və ya nüvə parçalanması və/ və ya birləşməsi (fusion), yaxud başqa oxşar reaksiya və ya radioaktiv qüvvəyə malik maddəni istifadə edən hər hansı hərbi silahın istifadəsindən meydana gələn itki, ziyan və ya xərc;

3.10 müharibə, vətəndaş müharibəsi, inqilab, üsyan, qiyam, yaxud onlardan meydana gələn mülki çarpışma, yaxud aqressiv güc tərəfindən və ya ona qarşı hər hansı düşməncısinə hərəkət.

**4.** 4.1 Heç bir halda bu sığorta gəminin dənizdə üzməyə yararlı olmamasından, gəminin daşıma konteynerinin və ya qaldırıcı vaqonunun səğortalanmış obyektin etibarlı (təhlükəsiz) daşınması üçün yararsız olmasından (harada ki, *Sığorta olunan* və ya onun xidmətçiləri sığorta olunmuş obyekt gəmilərə yüklənərkən dənizdə üzməyə yararsızlıqdan və ya uyğunsuzluqdan xəbərdar olmuşdur) meydana gələn itki, ziyan və ya xərcləri əhatə etmir.

4.2 *Sığorta olunan* və ya onun xidmətçiləri dənizdə üzməyə yararsızlıqdan və ya uyğunsuzluqdan xəbərdardır olmadıqda, Sığortaçılar gəminin dənizdə üzmək üçün yararlı olması və gəminin sığorta olunmuş obyekti daşıması üçün yararlı olması barədə nəzərdə tutulan zəmanətlərin hər hansı pozulmasına görə tələbdən imtina edirlər.

**DAVAMETMƏ MÜDDƏTİ**

5.1 Bu sığorta daşınmanın başlanması üçün malın burada qeyd olunan anbarı və ya başqa saxlama yerini tərk etdiyi vaxtdan başlayır və standart (adi) daşınma dövründə davam edir və aşağıdakı hallarda başa çatır:

5.1.1 malı alanın anbarına və ya burada qeyd olunan başqa son anbara və ya saxlama yerinə çatdırıldıqda;

5.1.2 *Sığorta olunanın* istifadə etmək üçün seçdiyi, burada qeyd olunan təyinat yerindən qabaq və ya həmin yerdə, hər hansı başqa anbara və ya saxlama yerinə çatdırıldıqda:

5.1.2.1 Standart daşınma prosesindən fərqli olan saxlama üçün, və ya

5.1.2.2 paylanma üçün,

və ya

5.1.3 Son boşaltma limanında bununla sığorta olunan malların xarici gəmidən boşaldılmasının başa çatmasından sonra 60 gün başa çatdıqda, hansı birinci baş verərsə.

5.2 Əgər son boşaltma limanında xarici gəmidən boşaltmadan sonra, lakin bu sığortanın ləğv olunmasından əvvəl mallar onların bu sənədə əsasən sığorta olunduğundan fərqli olan təyinat yerinə göndərilməidirlər, bu sığorta, yuxarıda qeyd olunduğu kimi ləğv olunmaya məruz qalmaqda qaldığı dövrdə, bu cür başqa təyinat yerinə daşınmanın başlanma xaricinə genişlənmir.

5.3 Bu sığorta Sığortalanın nəzarətindən kənar olan gecikmə (yuxarıda qeyd olunduğu kimi ləğvolunma və aşağıdakı 6-cı Maddənin müddəaları nəzərə alınmaqla), hər hansı kənaraçıxma, məcburi boşaltma, başqa yerə göndərmə və ya başqa yerə boşaltma müddətində, habelə kirələmə müqaviləsinə əsasən gəmi sahiblərinə və ya kirəçilərinə verilmiş hüququn (azadlığı) həyata keçirilməsindən meydana gələn hər hansı riskin (təsadüfi hadisənin) dəyişdiyi müddətdə qüvvədə qalır.

**6.** Əgər Sığorta olunanın nəzarətindən xaricdə olan şəraitdə daşıma haqqında müqavilə orada qeyd olunan təyinat yerindən fərqli olan limanda və ya yerdə başa çatarsa, yaxud daşınma yuxarıdakı 5-ci Maddədə nəzərdə tutulduğu kimi malların çatdırılmasından qabaq başqa cür başa çatarsa, onda aşağıdakı müddətlərdə *Sığortaçılara dərhal bildiriş verilmədikdə və sığortanın davam etdititilməsi xahiş olunmadıqda, bu zaman Sığortaçı tərəfindən tələb olunduğu halda əlavə sığorta haqqı ödənilməklə sığorta qüvvədə qalır,* bu sığorta da ləğv olunur:

6.1 mallar satılaraq və bu cür limana və ya yerə çatdırılanadək, yaxud, xüsusi olaraq başqa cür razılaşdırılmadıqda, bununla sığorta olunan malların bu cür limana və ya yerə gəlib çatdığı vaxtdan sonra 60 gün keçənədək, hansı daha tez baş verərsə,

və ya

6.2 əgər mallar qeyd olunan 60 günlük dövr ərzində (və ya hər hansı başqa razılaşdırılmış dövrdə) burada qeyd olunan təyinat yerinə və ya hər hansı başqa təyinat yerinə göndərilərsə, yuxarıdakı 5-ci Maddənin şərtlərinə uyğun olaraq ləğv olunduqda.

7 Bu sığorta qüvvəyə mindikdən sonra, təyinat yeri Sığorta olunan tərəfindən dəyişdirilərsə, *Sığortaçılara dərhal bildiriş verilmək şərtilə, daha yüksək qiymətlə və şərtlərlə əhatə olunan məbləğtutma barədə razılıq əldə olunmalıdır.*

**İDDİALAR**

**8.** 8.1 Bu sığortaya əsasən itkiləri bərpa etmək üçün, Sığorta olunan itkinin baş verdiyi vaxtda sığorta olunan obyektdə sığorta oluna bilən paya (marağa) malik olmalıdır.

8.2. Yuxarıdakı 8.1 Maddəsi nəzərə alınmaqla, Sığorta olunan bu sığorta ilə əhatə olunan müddət ərzində baş verən sığortalanmış itkini bərpa etmək hüququna malik olur, baxmayaraq ki, itki sığorta haqqında müqavilə bağlanmazdan əvvəl baş vermişdir, lakin Sığorta olunanın itki barədə məlumatlı olduğu və Sığortaçılarınsa məlumatlı olmadığ hal istisna olunur.

**9.** 9.1 Əgər Sığorta olunan tərəfindən bu sənədə əsasən sığorta olunmuş mal üçün Artırılmış Dəyərli Sığorta həyata keçirilərsə, malın razılaşdırılmış dəyəri bu sığortaya əsasən sığorta olunmuş ümumi məbləğədək artırılmış hesab olunur, və itkini əhatə edən bütün Artırılmış Dəyər sığortaları, habelə bu sığorta üzrə məsuliyyət burada sığorta olunan məbləğin bu cür ümumi sığorta olunuş məbləğə aidiyyətinə proporsional olur. İddia meydana gəldiyi halda, Sığorta olunan bütün başqa sığortalarla (sığorta məbləğləri ilə) sığorta olunan məbləğlərin sübutunu Sığortaçılara təqdim edir.

9.2. **Sığorta Artırılmış Məbləğ üzrə olduqda, aşağıdakı maddə tətbiq olunur:**

Yükün razılaşdırılmış dəyərinin ilkin sığortaya əsasən sığorta olunmuş ümumi məbləğə bərabər olduğu hesab olunur və itkini əhatə edən və Sığorta olunan tərəfindən yük üzrə həyata keçirilən bütün Artırılmış Dəyər sığortaları, habelə bu sığorta üzrə məsuliyyət burada sığorta olunan məbləğin bu cür sığorta olunmuş ümumi məbləğə aidiyyətinə proporsional olur. İddia meydana gəldiyi halda, Sığorta olunan bütün başqa sığortalarla (sığorta məbləğləri ilə) sığorta olunan məbləğlərin sübutunu Sığortaçılara təqdim edir.

**SIĞORTANIN FAYDASI**

**10.** Bu sığorta yük daşıyıcısının və ya yükün saxlanmaq üçün verilmiş olduğu başqa məsul şəxsin xeyrinə qüvvəyə malik deyil.

**İTKİLƏRİN MİNİMUMA ENDİRİLMƏSİ**

**11.** Sığorta olunan və onun xidmətçiləri, habelə agentləri bu sənədə əsasən bərpa olunmalı olan itki ilə əlaqədar aşağıdakıları etməyə borcludurlar:

11.1. bu cür itkinin qarşısının alınması və ya onun minimuma endirilməsi üçün lazım ola biləcək tədbirləri görmək, və

11.2. yük daşıyıcılarına, yükün saxlanmaq üçün verilmiş olduğu başqa məsul şəxslərə və ya üçüncü tərəflərə qarşı bütün hüquqların lazımi qaydada qorumasını və həyata keçirilməsini təmin etmək; bütün Sığortaçılar, bu sənədə əsasən bərpa olunmalı olan hər hansı itkiyə əlavə olaraq, bu vəzifələrin həyata keçirilməsi ilə bağlı Sığorta olunanın lazımi və əsaslandırılmış qaydada çəkmiş olduğu hər hansı xərcələri kompensasiya edəcək.

**12.** Sığorta olunmuş obyektin qorunması və bərpa olunması məqsədilə Sığorta olunanın və ya Sığortaçıların gördüyü tədbirlər tərəflərdən hər hansı birinin hüquqlarından imtina etməsi,

onları qəbul etməkdən imtina və ya başqa cür bu cür hüquqlara ziyan gətirdiyi kimi hesab olunmur.

**GECİKMƏYƏ YOL VERİLMƏMƏSİ**

**13.** Bu sığortanın şərtlərinə əsasən, Sığorta olunan onun nəzarəti altında olan bütün vəziyyətlərdə mümkün qədər tez tədbir görür.

**QANUN VƏ PROSESSUAL NORMALAR**

**14.** Bu sığorta Azərbaycan Respublikasının qanun və prosessual normaları ilə tənzimlənir.

***QEYD:*** *— Sığorta olunan, bu sığorta üzrə "yüksək qiymətlə və şərtlərlə əhatə olunan" hadisə baş verdiyi halda, bu barədə məlumat aldıqda dərhal Sığortaçılara bildiriş verməlidir, bu halda sığorta hüququ bu öhdəliyin yerinə yetirilməsindən asılıdır.*

**ƏLAVƏ 5. LONDON SIĞORTAÇILAR İNSTİTUTUNUN YÜK SIĞORTASI "MÜHARIBƏ HAQQINDA MADDƏ" ( CL255).**

**SIĞORTA OLUNAN RİSKLƏR**

**1.** Bu sığorta polisi, aşağıdakı 3-cü və 4-cü Maddələrdə müəyyən olunan hal istisna olunmaqla, sığorta olunmuş obyeklə bağlı aşağıdakıların səbəb olduğu itki və ya ziyanı əhatə edir:

1.1 müharibə, vətəndaş müharibəsi, inqilab, qiyam, üsyan və ya onlardan meydana gələn mülki mübahisə, yaxud aqressiv gücün və ya ona qarşı hər hansı düşməncəsinə hərəkət;

1.2 yuxarıdakı 1.1 bəndinə əsasən sığorta olunan risklərdən meydana gələn tutulma, müsadirə, həbs, azadlıqdan məhrumetmə və ya saxlanma, habelə onların nəticələri və hədə-qorxuya cəhd;

1.3 nəzarətsiz qalmış (atılmış) minalar, torpedolar, bombalar və ya atılmış hərbi silahlar.

2 Bu sığorta polisi kirələmə müqaviləsinə və/ və ya hökumətin qanununa və prosessual normalarına əsasən nizamlanan və ya müəyyən olunan, bu maddələrə əsasən sığorta olunan riskdən meydana gələn itkiyə yol verməmək və ya itkiyə yol verilməməsi üçün çəkilmiş olan ümumi qəza və xilasetmə xərclərini əhatə edir.

**İSTİSNA HALLAR**

**3.** Bu sığorta heç bir halda aşağıdakıları əhatə etmir:

3.1 Sığorta olunanın qəsdən yol verdiyi pis davranışına aid edilən itki, ziyan və ya xərc;

3.2 sığorta olunmuş obyektin adi sızması, çəkisində və ya həcmində baş verən adi itki, yaxud adi köhnəlmə;

3.3 sığorta olunmuş obyektin qablaşdırılma və ya hazırlanmasının qeyri-qənaətbəxş olmasının və ya uyğunsuzluğunun səbəb olduğu itki, ziyan və ya xərc (Bu 3.3 Maddəsinin məqsədi üçün "qablaşdırma" sözünə konteynerə və ya qaldırıcı vaqona yerləşdirmənin daxil olduğu hesab olunur, lakin, yalnız o zaman ki, bu cür yerləşdirmə bu sığortsa üzrə məsuliyyətin başlanmasından əvvəl, yaxud Sığorta olunan və ya onun xidmətçiləri tərəfindən hayata keçirilmişdir.);

3.4 sığorta olunmuş obyektin ayrılmaz qüsuru və ya xarakterindən baş verən itki, ziyan və ya xərc;

3.5 gecikmənin bilavasitə səbəb olduğu itki, ziyan və ya xərc, hətta əgər gecikmə sığorta olunmuş risk nəticəsində baş vermişdirsə (yuxarıdakı 2-ci Maddəyə əsasən ödənilməli olan xərclərdən başqa)

3.6 Gəmi sahiblərinin, menecerlərinin, kirəçilərinin və ya operatorlarının ödəmə qabiliyyətinin itirməsi və ya maliyyə öhdəliklərinin yerinə yetirməməsindən meydana gələn itki, ziyan və ya xərc;

3.7 səfər və ya sərgüzəştin itkisinə və ya uğursuz olmasına əsaslanan hər hansı iddia;

3.8 atom və ya nüvə parçalanması və/ və ya birləşməsi, yaxud başqa oxşar reaksiya və ya radioaktiv qüvvəyə malik maddəni istifadə edən hər hansı hərbi silahın düşməncəsinə istifadəsindən meydana gələn itki, ziyan və ya xərc;

**4.** 4.1 Heç bir halda bu sığorta gəminin dənizdə üzməyə yararlı olmamasından, gəminin daşıma konteynerinin və ya qaldırıcı vaqonunun səğortalanmış obyektin etibarlı (təhlükəsiz) daşınması üçün yararsız olmasından (harada ki, *Sığorta olunan* və ya onun xidmətçiləri sığorta olunmuş obyekt gəmilərə yüklənərkən gəminin dənizdə üzməyə yararsız olmasından və ya daşıma üçün yararsız olmasından xəbərdar olmuşdur) meydana gələn itki, ziyan və ya xərcləri əhatə etmir.

4.2 *Sığorta olunan* və ya onun xidmətçiləri gəminin dənizdə üzməyə yararsız olmasından və ya yükün daşınması üçün yararsıa olmasından xəbərdardır olmadıqda, Sığortaçılar gəminin dənizdə üzmək üçün yararlı olması və gəminin sığorta olunmuş obyekti daşıması üçün yararlı olması barədə nəzərdə tutulan zəmanətlərin hər hansı pozulmasına görə tələbdən imtina edirlər.

**DAVAMETMƏ MÜDDƏTİ**

**5.** 5.1 Bu sığorta polisi

5.1.1. yalnız sığorta olunmuş obyekt və ya onun hər hansı hissəsi xarici gəmiyə yüklənərkən başlayır və

5.1.2. sğorta olunmuş obyekt və ya onun bir hissəsi son boşaltma limanında xarici gəmidən boşaldıldıqda, yaxud gəminin son boşaltma limanına gəldiyi gündən hesablanmaqla 15 gün tamam olduqda, hansı birinci baş verərsə, başa çatır;

buna baxmayaraq,
*əlavə sığorta haqqı ödənilməklə və Sığortaçılara dərhal bildiriş verməklə,* bu cür sığorta

5.1.3. son boşaltma limanında yükü boşaltmadan gəmi oradan üzüb gedərkən yenidən başlayır, və

5.1.4. aşağıdakı 5.2 və 5.3 bəndləri nəzrə alınmaqla, ya sığorta olunmuş obyekt və ya onun hər hansı hissəsi bundan sonra son boşaltma limanında və ya yerində boşaldılarkən,

ya da

gəminin son boşaltma limanına və ya yerinə, yaxud gəminin əvəzedici son boşaltma limanına və ya yerinə təkrar qayıtdığı gün gecə yarısından başlayaraq hesablanmaqla 15 gün başa çatdıqda, hansı daha tez baş verərsə, başa çatır.

5.2. Əgər sığorta olunmuş səfər müddətində xarici gəmi və ya təyyarə ilə sonrakı daşınma üçün xarici gəmi sığorta olunmuş obyekti boşaltmaq üçün aralıq boşaltma limanına və ya yerinə gələrsə, yaxud mallar sığınacaq limanında və ya yerdə gəmidən boşaldılarsa, onda, aşağıdakı 5.3 bəndi nəzərə alınmaqla və tələb oldunduğu halda əlavə sığorta haqqı ödənilməklə, bu sığorta polisi gəminin bu cür liman və ya yerə gəldiyi gün gecə yarısından başlayaraq hesablanmaqla 15 gün başa çatanadək davam edir, lakin bundan sonra sığorta olunmuş obyekt və ya onun hissəsi sonrakı daşınma üçün xarici gəmiyə və ya təyyarəyə yükləndikdə yenidən başlayır. Boşaltmadan sonra 15 günlük müddət ərzində yalnız sığorta olunmuş obyekt və ya onun hissəsi bu cür liman və ya yerdə qaldıqda sığorta qüvvədə qalır. Lakin, əgər mallar qeyd olunan 15 günlük dövr ərzində daha sonra daşınarsa və ya əgər sığorta bu 5.2 Maddəsində nəzərdə tutulduğu kimi yenidən başlayarsa:

5.2.1. əgər sonradan daşınma xarici gəmi ilə həyata keçirilərsə, bu maddələrin şərtləri nəzərə alınmaqla bu sığorta davam edir, və ya

5.2.2. əgər sonradan daşınma təyyarə ilə həyata keçirilərsə, İnstitutun Müharibə haqqında cari Maddələrinin (Hava ilə daşınan Yük) (Poçtla göndərmə istisna olunmaqla) bu sığortanın bir hissəsini təşkil etdiyi hesab olunur və hava ilə sonradan daşınmaya tətbiq olunur.

5.3. Əgər daşınma haqqında müqavilədə səfər orada razılaşdırıldığından fərqli olan liman və ya yerdə başa çatarsa, bu cür liman və ya yer son boşaltma limanı hesab olunur və bu cür sığorta 5.1.2. bəndinə uyğun olaraq başa çatır. Əgər sığorta olunmuş obyekt sonradan ilkin və ya hər hansı başqa təyinat yerinə göndərilərsə, onda *bu cür sonrakı daşınma başlamazdan qabaq Sığortaçılara bildiriş verməklə və əlavə sığorta haqqı ilə,* bu cür sığorta aşağıdakı hallarda yenidən başlayır:

5.3.1 sığorta olunmuş obyektin boşaldıldığı halda, sığorta olunan obyekt və ya onun hissəsi sonradan daşınmaq üçün nəzərdə tutulmuş gəmiyə yükləndikdə;

5.3.2 sığorta olunmuş obyektin boşaldılmadığı halda, gəmi bu cür son boşaltma limanından üzüb getdikdə;

bundan sonra bu cür sığorta 5.1.4. bəndinə uyğun olaraq başa çatır.

5.4. Üzən və ya suyun altında olan mina və atılmış torpedolarla bağlı risklərə qarşı sığorta sığortalanmış obyekt və ya onun hər hansı hissəsi xarici gəmiyə və ya gəmidən daşınma zamanı gəmidə olduqda uzadılır, lakin heç bir halda, Sığortaçılar tərəfindən xüsusi olaraq başqa cür razılaşdırılmadıqda, xarici gəmidən boşaldıldıqdan sonra 60 günlük dövrü aşmır.

5.5. *Sığortaçılara dərhal bildiriş verməklə və tələb olunan əlavə sığorta haqqı ödənilməklə,* bu sığorta kirələmə müqaviləsinə əsasən gəmi sahiblərinə və ya kirəçilərə verilən azadlığın istifadə olunmasından meydana gələn hər hansı kənara çıxma və ya riskin hər hansı dəyişdiyi müddətdə bu Maddələrin şərtləri daxilində qüvvədə qalır.

(5-ci Maddənin məqsədi üçün "gəlmə" o deməkdir ki, gəmi Limanın Səlahiyyət sahəsi daxilində lövbər salmış, yan almış və ya körpüdə və ya başqa yerdə başqa cür bərkidilmişdir. Əgər bu cür körpü və ya yer yoxdursa, gəlmə o zaman baş vermiş hesab olunur ki, gəmi ilk dəfə nəzərdə tutulan

boşaltma limanında və ya yerində, yaxud onun xaricində lövbər salır, yan alır və ya başqa cür bərkidilir, "xarici gəmi" dedikdə obyekti bir limandan və ya yerdən başqasına aparan gəmi nəzərdə tutulur ki, bu halda bu cür səfər zamanı gəmi dənizdən keçməli olur.)

**6.** Bu sığorta başlandıqdan sonra, təyinat yeri Sığorta olunan tərəfindən dəyişdirilərsə, *Sığortaçılara dərhal bildiriş verilmək şərtilə, daha yüksək qiymətlə və şərtlərlə əhatə olunan məbləğtutma barədə razılıq əldə olunmalıdır.*

**7. Bu müqavilədə ifadə olunan, 3.7, 3.8 və ya 5 Maddələri ilə uyğun olmayan istənilən hal bu cür uyğunsuzluq həddinədək, qanuni hüququnu itirmiş hesab olunur.**

## İDDİALAR

**8** 8.1 Bu sığorta polisinə əsasən itkiləri bərpa etmək üçün, Sığorta olunan itkinin baş verdiyi vaxtda sığorta olunan obyektdə marağa (paya) malik olmalıdır.

8.2 Yuxarıdakı 8.1 bəndi nəzərə alınmaqla, Sığorta olunanın itki barədə məlumatlı olduğu, Sığortaçılarınsa məlumatlı olmadığı baş vermədikdə, itkinin sığorta haqqında müqavilə bağlanmazdan əvvələ baş verməsinə baxmayaraq, Sığorta olunan bu sığorta ilə əhatə olunan dövr ərzində baş vermiş sığortalanmış itkini bərpa etmək hüququna malikdir.

**9.** 9.1. Əgər Sığorta olunan tərəfindən bu sənədə əsasən sığorta olunmuş mal üçün Artırılmış Dəyərli Sığorta həyata keçirilərsə, malın razılaşdırılmış dəyəri bu sığortaya əsasən sığorta olunmuş ümumi məbləğədək artırılmış hesab olunur, və itkini əhatə edən bütün Artırılmış Dəyər sığortaları, habelə bu sığorta üzrə məsuliyyət burada sığorta olunan məbləğin bu cür ümumi sığorta olunmuş məbləğə aidiyyətinə proporsional olur.

9.2. **Sığorta Artırılmış Məbləğ üzrə olduqda, aşağıdakı maddə tətbiq olunur:**

Yükün razılaşdırılmış dəyəri ilkin sığortaya əsasən sığorta olunmuş ümumi məbləğə bərabər hesab olunur və itkini əhatə edən və Sığorta olunan tərəfindən yük üzrə həyata keçirilən bütün Artırılmış Dəyər üzrə sığorta məbləğləri, habelə bu sığorta üzrə məsuliyyət burada sığorta olunan məbləğin bu cür sığorta olunmuş ümumi məbləğə aidiyyətinə proporsional olur. İddia meydana gəldiyi halda, Sığorta olunan bütün başqa sığorta polisləri ilə sığorta olunan məbləğlərin sübutunu Sığortaçılara təqdim edir.

## SIĞORTANIN FAYDASI

**10.** Bu sığorta yük daşıyıcısının və ya yükün saxlanılmaq üçün verilmiş olduğu başqa məsul şəxsin xeyrinə qüvvəyə malik deyil.

## İTKİLƏRİN MİNİMUMA ENDİRİLMƏSİ

**11.** Sığorta olunan və onun xidmətçiləri, habelə agentləri bu sənədə əsasən bərpa olunmalı olan itki ilə əlaqədar aşağıdakıları etməyə borcludurlar:

11.1. bu cür itkinin qarşısının alınması və ya onun minimuma endirilməsi üçün lazım ola biləcək tədbirləri görmək, və

11.2. yük daşıyıcılarına, yükün saxlanılmaq üçün verilmiş olduğu başqa məsul şəxslərə və ya üçüncü tərəflərə qarşı bütün hüquqların lazımi qaydada qorumasını və həyata keçirilməsini təmin etmək; bütün Sığortaçılar, bu sənədə əsasən bərpa olunmalı olan hər hansı itkiyə əlavə

olaraq, bu vəzifələrin həyata keçirilməsi ilə bağlı Sığorta olunanın lazımi və əsaslandırılmış qaydada çəkmiş olduğu hər hansı xərcələri kompensasiya edir.

**12.** Sığorta olunmuş obyektin xilas olunması, qorunması və bərpa olunması məqsədilə Sığorta olunanın və ya Sığortaçıların gördüyü tədbirlər tərəflərdən hər hansı birinin hüquqlarından imtina etməsi, imtinanın qəbul edilməsi və ya başqa cür bu hüquqlara ziyan gətirdiyi kimi hesab olunmur.

**GECİKMƏYƏ YOL VERİLMƏMƏSİ**

**13.** Bu sığortanın şərtlərinə əsasən, Sığorta olunan onun nəzarəti altında olan bütün vəziyyətlərdə mümkün qədər tez tədbir görür.

**QANUN VƏ PROSESSUAL NORMALAR**

**14.** Bu sığorta Azərbaycan Respublikasının qanun və prosessual normaları ilə tənzimlənir.

***QEYD**:— Sığorta olunan, bu sığorta üzrə "yüksək qiymətlə və şərtlərlə əhatə olunan" hadisə baş verdiyi halda, bu barədə məlumat aldıqda dərhal Sığortaçılara bildiriş verməlidir, bu halda sığorta hüququ bu öhdəliyin yerinə yetirilməsindən asılıdır.*

## ƏLAVƏ 6. LONDON SIĞORTAÇİLAR İNSTİTUTUNUN YÜK SIĞORTASI "RADİOAKTİV TULLANTILAR, KİMYƏVİ, BIOLOJI, BİO-KİMYƏVİ VƏ ELEKTROMAQNİT SILAHLARIN İSTISNASI HAQQINDA MADDƏ" (CL 370)

Bu maddə birinci dərəcəlidir və bu sığorta polisində onunla uyğun gəlməyən hər bir hal üzərində üstün hüquqi qüvvəyə malikdir.

1. Heç bir halda bu sığorta polisi birbaşa və ya dolayı yolla aşağıdakıların səbəb olduğu, kömək etdiyi və ya onlardan meydana çıxan itki, ziyan, məsuliyyət və ya xərcləri əhatə etmir:

1.1 hər hansı nüvə yanacağından, nüvə tullantısından və ya nüvə yanacağının yanmasından əmələ gələn radiaktivliyin yaratdığı ionlaşdırıcı radiasiya və ya çirklənmə;

1.2 hər hansı nüvə qurğusunun, reaktorunun, başqa nüvə agreqatının və ya onun komponentinin radioaktiv, toksik, partlayıcı və ya digər təhlükəli və ya çirkləndirici xassələri

1.3 atom və ya nüvə bölünməsini və/ və ya sintezini və ya başqa reaksiya və ya radioaktiv qüvvə və ya maddəni istifadə edən hər hansı silah və ya cihaz.

1.4 hər hansı radioaktiv maddənin radioaktiv, toksik, partlayıcı və ya başqa təhlükəli və ya çirkləndirici xassələri. Bu sub-bölmədəki istisna, nüvə yanacağından başqa, kommersiya, kənd təsərrüfatı, tibbi, elmi və ya başqa oxşar sülh məqsədləri üçün izotoplar hazırlandıqda, daşındıqda, saxlandıqda, yaxud istifadə edildikdə, izitoplara şamil olunmur.

1.5 bütün kimyəvi, bioloji, bio-kimyəvi və ya elektromaqnit silahlar.